"Bu insanların məskunlaşdıqları yerlərdə yaşamaları, əmək fəaliyyəti ilə məşğul olmaları üçün bütün imkanlardan istifadə edirik. Biz əlimizdən gələni edirik ki, sizin yaşayışınız müəyyən qədər normal olsun. Amma aydındır ki, yerini, yurdunu itirmiş insanların yaşayışı çətindir. Bu, sizi də, bizi də incidir", - deyə çıxışlarının birində Ulu Öndər Heydər Əliyev məcburi köçkünlərin problemini dilə gətirərək həmin insanların ağrılarını dərindən duyduğunu bu fikirlərlə ifadə etmişdi.

Heydər Əliyevin şəxsi diqqəti sayəsində keçmiş məcburi köçkünlərin qayğı və problemlərinin həlli istiqamətində mühüm işlər görülürdü. Ulu Öndər dəfələrlə çadır şəhərciklərinə yollanır, orada yaşayan insanların şəraitləri ilə tanış olur, problemlərinin həlli istiqamətində mümkün olan bütün işləri görürdü.

Ümummilli Liderin əsasını qoyduğu uğurlu neft strategiyası sayəsində əldə edilən ilk vəsait də məhz qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına yönəldilmişdi. İnsanlarımızın acınacaqlı şəraitdə yaşamağa məcbur olduğu çadır düşərgələrinin ləğvinə başlanılmışdı.

Ulu Öndərin 7 sentyabr 2001-ci ildə "Azərbaycan torpaqlarının erməni silahlı qüvvələri tərəfindən işğalı nəticəsində Ağdam və Füzuli rayonlarından didərgin düşmüş və çadır düşərgələrində müvəqqəti yerləşdirilmiş məcburi köçkünlərin bir qisminin həmin rayonların ərazisində məskunlaşdırılması ilə bağlı bəzi tədbirlər haqqında" və 13 may 2002-ci il "Biləsuvar rayonu ərazisində yerləşən beş çadır düşərgəsində məskunlaşmış məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması ilə bağlı bəzi tədbirlər haqqında" fərmanlarına uyğun olaraq, Biləsuvar, Füzuli və Ağdam rayonlarının ərazisində 5081 ailədən ibarət 22800 məcburi köçkün üçün bütün zəruri sosial-texniki infrastrukturu ilə birlikdə 20 qəsəbə salındı və Biləsuvar rayonu ərazisindəki 5 çadır düşərgəsi 2003-cü ilin iyun ayında ləğv edildi.

### "Əziz keçmiş köçkünlər, siz artıq köçkün deyilsiniz…"

Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla həyata keçirən Prezident İlham Əliyevin də fəaliyyətinin prioriteti qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli, ən başlıcası isə torpaqlarımızın işğaldan azad edilməsi idi.

Buna görə idi ki, cəmi 4 il ərzində - 2003-cü ildən 2007-ci ilə qədər ölkədəki bütün çadır şəhərcikləri ləğv olundu. 2020-ci ilə qədər ölkədə məcburi köçkünlər üçün 100-dən çox qəsəbə-şəhərcik salındı. Ötən müddət ərzində Azərbaycanda 300 mindən çox məcburi köçkün mənzillərlə, fərdi evlərlə təmin olundu, həmçinin onların problemləri ardıcıl şəkildə öz həllini tapdı.

Yüz minlərlə keçmiş məcburi köçkün vətəndaşımızın illərlə eşitmək istədiyi böyük müjdəni isə Qarabağın xilaskarı İlham Əliyev 8 noyabr 2020-ci il zəfərindən cəmi bir neçə gün keçdikdən sonra verdi: "Əziz keçmiş köçkünlər, siz artıq köçkün deyilsiniz…"

Şuşa qələbəsini xalqımıza ərmağan edən qalib lider İlham Əliyev tezliklə bizləri Qarabağa qayıdış zəfəri ilə xoşbəxtlik zirvəsinə ucaltdı. Vətən müharibəsindən dərhal sonra Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı tikinti, quruculuq işlərinə start verən Azərbaycan dövləti bu ərazilərdə mühüm layihələr həyata keçirir. İnfrastruktur bərpa olunur, yollar çəkilir, su-elektrik stansiyaları tikilir, beynəlxalq hava limanlarının təməlləri qoyulur, istifadəyə verilir, "ağıllı kənd", "ağıllı şəhər"lər salınır. İşğalçı Ermənistan tərəfindən vandalizmə məruz qalan tarixi, mədəni, dini irsimiz bərpa olunur.

Görülən kompleks işlərin nəticəsidir ki, bu günədək 15 yaşayış məntəqəsində, yəni 5 şəhər və 9 kənddə daimi məskunlaşma gerçəkləşdirilib. 14997 nəfər (3761 ailə) əzəli torpağına qovuşub. Qarabağa və Şərqi Zəngəzura mütəmadi qayıdış həyata keçirilir və tezliklə bütün keçmiş məcburi köçkünlər doğma yurda qovuşmağın təsvirəgəlməz sevincini yaşayacaqlar.

Bəli, indi Qarabağ və Şərqi Zəngəzurdan doğma hənir gəlir, yeni doğulan körpələrin hayqırışı çağlayan həyatın rəmzinə çevrilir...

Bütün bunlar düz 30 illik böyük zaman dilimində keçmiş məcburi köçkünlərin çəkdikləri ağrı-acılara, qəlblərində açılan dərin yaralara məlhəm olur.

### Qaçqın soydaşlarımızın da yurd həsrəti bitəcək

Amma üç yüz mindən çox soydaşımız hələ də təəssüf ki, qaçqınlıq adından qurtula bilməyib. Qərbi Azərbaycandan olan soydaşlarımız da bir gün mütləq zorla didərgin salındıqları tarixi yurdlarına qayıdacaqlarını böyük inam və ümidlə gözləyirlər.

Çünki Qarabağa və Şərqi Zəngəzura əzəli sakinlərini qaytaran dövlətimizin növbəti milli prioriteti, qarşısına qoyduğu hədəfi Qərbi Azərbaycana qayıdışı həyata keçirməkdir. Qərbi azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə tarixi yurdlarına dönüşünü təmin etmək üçün bu istiqamətdə mühüm işlər görülür.

Qərbi Azərbaycan İcmasının yeni Nizamnaməsi təsdiq olunub, Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların geriyə qayıtmasının təmin edilməsi ilə bağlı Qayıdış Konsepsiyası hazırlanıb. Qafqaz Müsəlmanları İdarəsi İrəvan Qazılığının bərpa edilməsi barədə qərar verib. İrəvan Qazılığının Əsasnaməsi də artıq təsdiqlənib.

"Ermənistan azərbaycanlıların öz dədə-baba yurdlarına qayıtmaq hüququna hörmətlə yanaşmalıdır. Bu, bölgədə sülhün, barışığın və insan hüquqlarının bərqərar olması üçün vacib şərtdir".

Bu il iyunun 18-də "Qanunun aliliyinin gücləndirilməsi: ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu" mövzusunda Ombudsmanların Beynəlxalq Simpoziumunun iştirakçılarına müraciətində də dövlət başçısı İlham Əliyev vurğulayıb ki, Simpoziumda müzakirə ediləcək mövzulardan biri qaçqınların hüquqları ilə bağlıdır. Bu sahədə diqqət yetirilməli olan məsələ keçən əsrin əvvəllərindən başlayaraq, Ermənistan ərazisindən yüz minlərlə azərbaycanlının zorla çıxarılması və etnik təmizləməyə məruz qalmasıdır: "Həmin dəhşətli deportasiyalardan sonra Ermənistan ərazisində bir nəfər belə azərbaycanlı qalmamış, bu ərazilərdə xalqımızın qədim tarixi-mədəni, dini-mənəvi irsi, o cümlədən abidələr, məscidlər, qəbiristanlıqlar məhv edilmişdir. Tarixi ədalət bu insanların öz vətənlərinə dinc və təhlükəsiz qayıdışının təmin olunmasını tələb edir".

Göründüyü kimi, Qərbi Azərbaycana qayıdış xalqımızın, dövlətimizin milli ideyası kimi həm ölkə, həm də beynəlxalq səviyyədə daim gündəlikdə saxlanılır.

Bütün bunlar onu deməyə əsas verir ki, gün gələcək, Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri də tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Qərbi Azərbaycana qayıdış - milli hədəfin növbəti mərhələsi

**M**üzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın azadlığından, ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin təmin olunmasından sonra bu gün Azərbaycan dövləti qarşısında duran ən mühüm hədəflərdən biri vaxtilə Qərbi Azərbaycandan müxtəlif üsullarla deportasiya edilmiş soydaşlarımızın indiki Ermənistan ərazisindəki ata-baba yurdlarımıza ləyaqətli şəkildə qayıdışının təmin edilməsindən ibarətdir. Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin "Qərbi Azərbaycana qayıdış" mövzusunda icra edilən QHT layihələri ilə bağlı ictimai hesabat xarakterli brifinqi, tədbirdə təqdim edilən faktlar bu prioritetin dövlət institutlarımız, ictimai sektor üçün də nə qədər mühüm əhəmiyyət daşıdığını göstərir.

### Ağrılı yaddaşımız

Qərbi Azərbaycan mövzusunun əhəmiyyətini şərtləndirən bir çox strateji, siyasi, tarixi amil vardır. İlk növbədə bu ərazilər ulularımızın min illərlə yaşayıb zəngin mədəniyyət yaratdıqları tarixi torpaqlardır. Qərbi Azərbaycan milli irsimizin çox mühüm bir hissəsidir.

Ötən əsrin əvvəllərindən başlayaraq, xüsusilə 1948-1953-cü və 1980-ci illərdə Ermənistanda yaşayan yüz minlərlə azərbaycanlı məcburi şəkildə öz yurdlarından qovulub. Bu faktlar hər bir dünya azərbaycanlısının milli yaddaşındakı ağrılı məqamlarıdır və ciddi insan haqları pozuntusu kimi beynəlxalq hüquq bu fakta biganə qalmamalıdır. Azərbaycan dövləti də Qərbi Azərbaycan mövzusunu beynəlxalq hüquq müstəvisində gündəmdə saxlamaqla, vaxtilə etnik təmizləməyə məruz qalmış soydaşlarımızın geri qayıdış haqqını tələb edir.




Qərbi Azərbaycan İcmasının "İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə konsepsiya - Qayıdış Konsepsiyası"nda bununla bağlı çox aydın, beynəlxalq hüquqi çərçivələrə əsaslanan müddəalar öz əksini tapmışdır. İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların könüllü şəkildə, təhlükəsiz şəraitdə və ləyaqətlə öz yurdlarına qayıda bilmələri üçün müvafiq zəmanət mexanizmi olan və hüquqi baxımdan məcburi xarakter daşıyan beynəlxalq razılaşmanın əldə edilməsi, geriyə qayıtma prosesinin müvafiq təhlükəsizlik, humanitar, sosial-iqtisadi yardım proqramları ilə təminat altına alınması bu konsepsiyanın müddəalarındandır. Geriyə qayıtmış əhalinin yenidən qovulmasına, onlara qarşı hər hansı ayrı-seçkiliyin həyata keçirilməsinə və zərər vurulmasına imkan verməmək üçün beynəlxalq monitorinq, hesabatlılıq, təhlükəsizlik, müdaxilə və digər zəruri fəaliyyətin bərqərar edilməsi, beynəlxalq nəzarət altında yenidənqurma və barışıq tədbirlərinin həyata keçirilməsi yolu ilə, geriyə qayıtmış insanların davamlı reabilitasiya və reinteqrasiyasının təmin edilməsi də bura daxildir.

### Niyyətimiz ədalətin təmin olunmasıdır

Həmin sənəddən göründüyü kimi, ölkəmizin Qərbi Azərbaycanla bağlı hədəfləri əsla hansısa qonşu ölkəyə qarşı ərazi iddiası deyil. Azərbaycanın dövlət siyasətində işğala, başqa bir ölkənin suveren ərazilərinə təcavüzə qətiyyən yer yoxdur. Bununla belə, hər bir insanın öz ata-baba yurduna təhlükəsiz, könüllü qayıdışı hüququnun tanınması da ədalətin təmin olunması məsələsidir və Azərbaycan məhz buna çalışır.

Uzun illər ərzində Ermənistanın işğalçı mövqeyi üzündən davam edərək hər iki tərəf üçün böyük itkilər hesabına başa gəlmiş, xüsusilə Azərbaycana on minlərlə vətəndaşımızın ölümü ilə yanaşı, həm də ağır iqtisadi-sosial yaralar vurmuş münaqişənin ordumuzun gücü ilə həllindən sonra dövlətimizin əsas məsədi bölgəmizdə əbədi sülhə, dayanıqlı inkişafa, bütün region dövlətlərinin faydalana biləcəyi mehriban qonşuluq, qarşılıqlı əməkdaşlıq mühitinə nail olmaqdır. Bu isə ancaq haqq-ədalətin təmin olunması, fərdlərin hüquqlarının qorunması ilə mümkündür. Qərbi Azərbaycan mövzusu bu baxımdan Cənubi Qafqazda dayanıqlı sülhün, insanların rifah və xoşbəxtliyinin əldə edilməsi baxımından son dərəcə aktualdır. Bu mövzu xalqımızın milli birliyi və tarixi yaddaşının qorunması üçün də vacibdir. Çünki Qərbi Azərbaycan məsələsi ictimaiyyətimiz üçün dərin emosional və ideoloji məna kəsb edir.

Bütün bu səbəblərdən son illərdə "Qərbi Azərbaycana qayıdış" mövzusu Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin qrant müsabiqələrinin də prioritet istiqamətlərindən biridir. Agentliyin hesabatından belə görünür ki, təkcə son üç il ərzində 50 QHT-nin "İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə konsepsiya - "Qayıdış Konsepsiyası"nın müvafiq müddəaları ilə əlaqədar 54 təşəbbüsü dəstəklənib.

Ötən illər ərzində Azərbaycan QHT-ləri beynəlxalq platformalarda - BMT, ATƏT və digər nüfuzlu təşkilatların tədbirlərində aktiv iştirak edərək Qərbi Azərbaycanla bağlı məsələləri gündəmə gətirib, ictimai müzakirələr keçiriblər. Bu təşəbbüslər ABŞ, Belçika, İspaniya, Rumıniya, Polşa, Türkiyə, Özbəkistan və Qazaxıstan kimi ölkələri əhatə edib. "Qərbi Azərbaycana qayıdış" mövzusunda indiki qədər geniş və ardıcıl QHT fəallığı daha əvvəl müşahidə olunmayıb. Bu da onu göstərir ki, vətəndaş cəmiyyəti bu istiqaməti Qarabağ və Şərqi Zəngəzurun azadlığından sonra milli ideyanın növbəti mərhələsi kimi qəbul edir və bu ümumxalq arzunun gerçəkləşməsi üçün bütün resurslarını səfərbərliyə ala bilib.

Agentliyin təqdim etdiyi faktlara istinadən xatırladaq ki, 2025-ci il qrant müsabiqəsində "Qərbi Azərbaycana qayıdış: maddi-mədəni irs və hüquqlar" istiqaməti üzrə daha 51 QHT-nin layihəsi dəstəklənib. İl ərzində bu mövzuda beynəlxalq təşkilatlar, Avropa və türk dünyası regionlarında onlarca konfrans, sərgi və müxtəlif tədbirlər keçiriləcək.

### Biz qayıdacağıq

Bu il reallaşdırılan yeni layihələrdə Qərbi Azərbaycanla bağlı hekayələrin daha emosional və yaradıcı üsullarla - musiqi, bədii yaradıcılıq, ekran əsərləri və sənətkarlıq nümunələri vasitəsilə təqdim olunmasına üstünlük verildiyi müşahidə olunur. Monitorinqlər göstərir ki, bu metodlar cəmiyyətin diqqətini daha effektiv şəkildə cəlb edir. Yaxın günlərdə "Bizi Birləşdirən Mədəniyyət" İctimai Birliyinin layihəsi çərçivəsində "Zəngəzur mahnısı" ictimaiyyətə təqdim ediləcək və radiolarda səsləndiriləcək. Mahnını ölkənin tanınmış sənətkarları ifa ediblər. Aşıqların iştirakı ilə keçiriləcək konsertlər də Qərbi Azərbaycan həsrətini dilə gətirəcək.

Bu istiqamətdə həyata keçirilən digər mühüm layihələrə "Dədə Ələsgər Ocağı" İctimai Birliyinin "Ustad Ələsgərin Göyçə harayı - Vətənə sarı", "Ozan Dünyası" İctimai Birliyinin "Aşıqlar Qərbi Azərbaycanı tərənnüm edir" və Azərbaycan Aşıqlar Birliyinin "Qərbi Azərbaycan aşıqlarının dastan repertuarı" layihələri daxildir. Eyni zamanda "Tətbiqi Sənət Nümunələrinin Qorunmasına və Təbliğinə Yardım" İctimai Birliyi yaxın vaxtlarda Özbəkistanda bu mövzuda sərgi təşkil edəcək.

Müvafiq layihələr əsasında "Qərbi azərbaycanlıların Qars köçü" mövzusunda sənədli film də hazırlanır. Azərbaycan Ədəbiyyatı Fondu isə "Qərbi Azərbaycan əsərlərdə" layihəsi çərçivəsində yeni bədii əsərin təqdimatını edəcək.

"Elmi Araşdırmalar" İctimai Birliyinin "İrəvan: hər daşı tarix", "Dünya Gənc Türk Yazarlar" İctimai Birliyinin "Türk dünyasında Qərbi Azərbaycan mövzusu" və digər layihələr Qərbi Azərbaycanın maddi-mədəni irsinə qarşı vandalizmin hüquq müstəvisində və digər aspektlərdən qiymətləndirilməsinə kömək göstərəcək.

Agentliyin dəstəyi ilə ərsəyə gətirilmiş layihələr çərçivəsində son illər QHT-lər 200-dən çox məqalə ilə çıxış edib, 15 kitab nəşr edib. "Vətəndaşların Sosial Rifahı Naminə" İctimai Birliyinin "İrəvan: tariximiz, torpağımız, taleyimiz", "Kainat" Milli-Mənəvi Dəyərlərin Təbliğinə Dəstək İctimai Birliyinin "İrəvan: tarixi həqiqətlər və şəxsiyyətlər" kitabları buna nümunədir.

Bütün bunlar göstərir ki, Azərbaycan xalqı olaraq biz milli birliyimizin gücü ilə Qarabağın, Şərqi Zəngəzurun azadlığına, ölkəmizin ərazi bütövlüyünə, dövlət suverenliyinə nail olduğumuz kimi, Qərbi Azərbaycana qayıdışı da təmin edəcəyik. O günlər uzaqda deyil.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan insan hüquqlarının etibarlı təmin olunduğu dövlətdir




**Azərbaycan Respublikası demokratik, hüquqi inkişaf yolunu seçib. Odur ki, respublikamızda insan hüquqlarının demokratik dəyərlər çərçivəsində təmini bu sahədə dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Söz, vicdan, sərbəst toplaşmaq və digər bu kimi azadlıqlar Azərbaycanda demokratiyanın mühüm və ayrılmaz tərkib hissələri kimi qəbul edilməkdədir.**

Azərbaycanda insan hüquqlarının prioritetliyi müstəqilliyimizin bərpasının ilk günlərindən önə çəkilib. Belə ki, 1991-ci il oktyabrın 18-də qəbul edilmiş Azərbaycan Respublikasının "Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nda ölkəmizin BMT-nin "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi"ni tanıdığı öz əksini tapıb. Sənədin 19-cu maddəsində göstərilir ki, Azərbaycan Respublikası İnsan Hüquqlarının Ümumi Bəyannaməsinə, Helsinki müşavirəsinin Yekun aktına və hamılıqla qəbul edilmiş, başqa beynəlxalq hüquq sənədlərinə qoşularaq onlarda nəzərdə tutulan bütün hüquq və azadlıqlara vətəndaşların cinsindən, irqindən və milli mənsubiyyətindən, dini etiqadından, sosial mənşəyindən, siyasi əqidəsindən və başqa hallardan asılı olmayaraq əməl edilməsini, bu hüquq və azadlıqların maneəsiz həyata keçirilməsini təmin edir və Azərbaycan vətəndaşlarının hüquq və azadlıqları qanunda nəzərdə tutulmuş xüsusi hallardan başqa, hər hansı formada məhdudlaşdırıla bilməz.

Lakin müstəqilliyimizin ilk illərində Azərbaycanda insan hüquqlarının təminatı sahəsində, demək olar ki, əsaslı irəliləyiş baş vermədi. İnsan hüquq və azadlıqlarının demokratik dəyərlər çərçivəsində təmini ilə bağlı müxtəlif bəyanatlar səslənsə də, real həyatda bu təsdiqini tapmadı.

Yalnız 1993-cü ilin iyununda Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra respublikada ictimai-siyasi sabitliyin, qanunçuluğun və hüquq qaydalarının bərpası istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi prosesi geniş vüsət aldı. O cümlədən insan hüquqlarının etibarlı müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edildi. Bu hüquqlar gündəlik həyatımızda öz real təminatını almaqla yanaşı, həm də hüquqi normativ sənədlərdə öz əksini tapdı.

Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxardı. İnsan şəxsiyyətinin toxunulmazlığı, onun həyat və sağlamlığının qorunması, layiqli həyat səviyyəsinin təmini, humanizm və insanpərvərlik prinsipləri konstitusiyamızın başlıca mahiyyətini təşkil edir. Konstitusiyanın 12-ci maddəsinin I hissəsinə əsasən insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. 12-ci maddənin ikinci hissəsinə əsasən, Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir.

Əsas Qanunda insan hüquq və azadlıqlarına geniş yer verilməsi ölkəmizin demokratiya ideallarına sadiqliyinin göstəricisidir. Eyni zamanda Konstitusiya insan və vətəndaş hüquqlarını, azadlıqlarını gözləməyi və qorumağı qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının da üzərinə vəzifə olaraq qoyub.

Azərbaycanın konkret inkişaf mərhələsinə uyğun olaraq insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq məqsədilə Ulu Öndər Heydər Əliyev tərəfindən 1998-ci il iyunun 18-də İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı təsdiq edilib. Proqramda qarşıya qoyulmuş vəzifələrin icrası respublikamızda insan hüquq və azadlıqlarının təminatı sahəsində hüquqi mexanizmlərin təkmilləşdirilməsi, institusional islahatların həyata keçirilməsi ilə müşayiət olunub. O cümlədən ölkəmizdə müasir məhkəmə sisteminin formalaşdırılması, insan hüquqları üzrə müvəkkil təsisatının yaradılması insan hüquqlarının daha dolğun təminatına xidmət edib.

Prezident İlham Əliyevin fəaliyyətində insan hüquqları məsələləri xüsusi yer tutur. 2006-cı ildə qəbul edilmiş "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı" insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, universal və regional səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət edib. Dövlət başçısının Prezident İlham Əliyevin 18 iyun 2007-ci il tarixli "Azərbaycan Respublikasında İnsan hüquqları gününün təsis edilməsi haqqında" sərəncamı ilə Ümummilli Lider Heydər Əliyev tərəfindən 1998-ci il iyunun 18-də Azərbaycan Respublikasında ilk "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiq edildiyini və insan hüquqlarının təmin olunmasının dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edildiyini nəzərə alaraq hər il iyunun 18-i respublikamızda İnsan Hüquqları Günü kimi qeyd olunur.

İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması, hüquq mədəniyyətinin inkişaf etdirilməsi, normativ-hüquqi bazanın və hüquq müdafiə sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə Prezident İlham Əliyev tərəfindən 27 dekabr 2011-ci ildə Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı təsdiq edilib.

Azərbaycanda insan hüquqları sahəsində yeganə problem Ermənistanın işğalçılıq siyasəti nəticəsində yüz minlərlə vətəndaşımızın doğma ev-eşiklərindən məcburi köçkün düşmələri idi. Torpaqlarımızın işğal altında qalması Konstitusiya ilə təmin altına alınmış insan hüquqlarının müdafiəsinin həmin ərazilərdə tətbiqinə imkan vermirdi. Vətəndaşlarımızın doğma yurdda təhlükəsiz yaşamaq, azadlıq, mülkiyyət, mənzil toxunulmazlığı və digər konstitusion hüquqları pozulmuşdu. Təəssüflə qeyd edilməlidir ki, öz fəaliyyətləri ilə insan hüquq və azadlıqlarını qoruduqlarını iddia edən beynəlxalq təşkilatlar bir dəfə də olsun Azərbaycan xalqının pozulmuş hüquqlarını dilə gətirmədilər. Respublikamızı dəfələrlə qərəzli şəkildə ittiham edən həmin təşkilatlar bir dəfə də olsun Ermənistanın işğalı nəticəsində Azərbaycan vətəndaşlarının mülkiyyət və mənzil toxunulmazlıqlarının və digər hüquqlarının tapdalandığını söyləmədilər.

Xalqımız isə heç vaxt ümidlərini itirmədi. Hər zaman inandıq ki, torpaqlarımız işğaldan azad ediləcək, vətəndaşlarımızın pozulmuş hüquqları bərpa olunacaq. Bu müqəddəs arzu 2020-ci ilin Vətən müharibəsində reallaşdı. 44 günlük savaşda torpaqlarımızın işğaldan azad edilməsi ilə Azərbaycan vətəndaşlarının pozulmuş konstitusion hüquqları da bərpa olundu. Bu gün Qarabağ və Şərqi Zəngəzur sürətlə bərpa olunur və indiyə kimi 14 min nəfərə yaxın keçmiş məcburi köçkünün doğma yurda qayıdışı təmin edilib.

Azərbaycan insan hüquq və azadlıqlarının etibarlı təmin olunduğu, şəxsiyyət, vətəndaş və cəmiyyət münasibətlərinin demokratik prinsiplərə əsaslandığı dövlətdir. Bu istiqamətdə həyata keçirilən bütün tədbirlər respublikamızın demokratik dəyərlərinə sadiqliyinin göstəricisidir.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Aqrar sektor yeni yüksəliş mərhələsindədir

Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan davamlı və dayanıqlı Azərbaycan iqtisadiyyatı dövlət başçısı İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Azərbaycanın 2030-cu ilədək milli prioritetlərində və 2022-2026-cı illər üzrə sosial-iqtisadi inkişaf strategiyasında qeyri-neft iqtisadiyyatını daha da inkişaf etdirmək, insan kapitalını yüksəltməklə beynəlxalq aləmdə, dünya iqtisadiyyatında mövqelərimizi möhkəmləndirmək, ixracı artırmaqla yüksək gəlir əldə etmək əsas vəzifə kimi qarşıya qoyulub.



Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, iqlim dəyişiklikləri, dünyada baş verən hadisələr, müharibələr, münaqişələr dünya iqtisadiyyatının davamlı inkişafına, iqtisadi əlaqələrin genişləndirilməsinə və möhkəmləndirilməsinə mənfi təsirlərini göstərməklə bir çox ölkəni çətinliklər, aclıq, ərzaq çatışmazlığı qarşısında qoyub. Dünya iqtisadiyyatındakı qeyri-müəyyənliklər, təchizat məsələlərində baş verən çətinliklər, yaranan problemlər enerji daşıyıcılarının, nəqliyyat xərclərinin və ərzaq məhsullarının qiymətlərinin artması inflyasiyanın yüksəlməsinə səbəb olmaqla bir çox ölkədə iqtisadi böhran yaradıb. Belə bir şəraitdə Azərbaycan iqtisadiyyatının inkişafı, dayanıqlı və davamlı olması ölkə rəhbəri İlham Əliyevin yürütdüyü düşünülmüş siyasətin, iqtisadi sahədə həyata keçirilən mühüm layihələrin, proqramların, tədbirlərin, sahibkarlığa göstərdiyi qayğı və diqqətin nəticəsi kimi qiymətləndirilməlidir. Bu uğurlu siyasətin bəhrəsidir ki, 2024-cü ildə ölkədə 126.3 milyard manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4.1 faiz çox ümumi daxili məhsul istehsal edilib, iqtisadiyyatın qeyri-neft-qaz sektorunda əlavə dəyər 6,4 faiz çox olub.

Komitə sədri qeyd edib ki, ötən il ölkənin sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 64.1 milyard manatlıq və ya 2023-cü illə müqayisədə 1.1 faiz çox məhsul istehsal edilib, qeyri-neft-qaz sektorunda məhsul istehsalı 7.2 faiz artıb: "İqtisadi inkişafın təmin olunması sahəsində həyata keçirilən tədbirlərin, sahibkarlığa göstərilən diqqət və qayğının nəticəsidir ki, ötən ildə də nüfuzlu beynəlxalq qurumların reytinqlərində Azərbaycan iqtisadi göstəricilərinə görə yuxarı sıralarda yer tutub, beynəlxalq nüfuzunu yüksəldib. Ölkəmizdə qeyri-neft sektorunun inkişafı sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər artıq öz bəhrəsini verməkdədir. Prezidentimiz ölkə iqtisadiyyatının şaxələndirilməsi, sahibkarlığa geniş meydan verilməsi, şəffaflığın və aşkarlığın təmin olunması, maliyyə imkanlarından səmərəli istifadə olunması istiqamətində görülən işləri daim nəzarətdə saxlamaqla, daha mütərəqqi layihələrin hazırlanmasına, qabaqcıl təcrübənin, texnologiyaların tətbiqinə böyük önəm verir. Əgər 2010-cu ildə ölkənin qeyri-neft sektorunda 18.4 milyard manatlıq məhsul istehsal olunurdusa, keçən il bu göstərici 85 milyard manatı ötüb".

Qeyri-neft sektorunun inkişafında aqrar sahənin mühüm rola malik olduğunu vurğulayan T.Rzayev bildirib ki, torpaq sahiblərinə, fermerlərə göstərilən qayğının, dövlət dəstəyinin nəticəsində keçən il kənd təsərrüfatının əksər sahələrində yüksək göstəricilər əldə edilib. Yeni subsidiya mexanizminin yaradılması, elektron kənd təsərrüfatı informasiya sisteminin tətbiqi, islahatların aparılması, sahibkarlarla əlaqələrin möhkəmləndirilməsi, görüşlərin təşkili, beynəlxalq əhəmiyyətli konfransların, forumların keçirilməsi, maarifləndirməyə üstünlük verilməsi aqrar sektorun inkişafına, həm də insanların kənddə möhkəmlənməsinə, yeni iş yerlərinin açılmasına, əhalinin maddi vəziyyətinin yaxşılaşmasına imkanlar yaradıb. Aqroparkların, sənaye müəssisələrinin, iri təsərrüfatların artması, mütərəqqi texnologiyalara, qabaqcıl təcrübəyə üstünlük verilməsi, güzəştlərin tətbiqi sahibkara, kənd təsərrüfatı sahəsində çalışan hər kəsə yaxşı işləmək, yüksək məhsul əldə etmək üçün bir stimul verib.

Tahir Rzayev vurğulayıb ki, qeyri-neft sektorunda artım bu ilin birinci rübündə də özünü aydın şəkildə göstərir. Azərbaycanda bu dövrdə 29 milyard 893 milyon manatlıq ümumi daxil məhsul istehsal olunub ki, bunun da 20 milyard 103 milyon manatı qeyri-neft sektorunun payına düşür. Qeyd olunan dövrdə 331.2 milyon dollarlıq kənd təsərrüfatı məhsulları ixrac olunub ki, bu da 17.2 faiz artım deməkdir. Aqrar-sənaye məhsulları da 5.9 faiz artaraq 115.6 milyon dollara çatıb. Ümumilikdə aqrar və aqrar sənaye məhsullarının həcmi 14 faiz artıb. "Son illər ölkədə ərzaq təhlükəsizliyinin təmin olunması, aqrar sektorun inkişaf etdirilməsi sahəsində qarşıya qoyulan vəzifələrin uğurla həyata keçirilməsinin nəticəsidir ki, həm məhsul istehsalı, həm də ixrac artıb. Bu ilin 4 ayı ərzində aqrar məhsulların ixrac dəyəri 14 faiz artmış, 232.7 milyon manat dollara, aqrar-sənaye məhsullarının ixrac dəyəri isə 7.9 faiz artaraq 90.8 milyon dollara çatıb. Keçən ilin 4 ayı ilə müqayisədə aqrar-sənaye məhsullarının yaratdığı dəyərin 12.2 faiz çoxalaraq 323.6 milyon dollara çatması aqrar sektora göstərilən qayğı və diqqətin ifadəsidir. Əsas bitkiçilik məhsullarından sayılan pambıq mahlıcının, pomidorun, meyvə-tərəvəzin ixracında özünü göstərən artım yüksələn xətt üzrə inkişaf edir ki, bu da gələcək ixrac üçün yeni perspektivlər yaradır. Aqrar sektorda inkişaf, məhsul bolluğu daxili bazarın tələbatını ödəməklə xarici bazarlara çıxışı sürətləndirir ki, bu da əlavə pul vəsaitlərinin əldə edilməsi üçün çox əhəmiyyətlidir", - deyə o bildirib.

Komitə sədri deyib ki, qeyri-neft sektorunda 5 aylıq ixracın 1 milyard dollara çatması yaxşı nəticədir və kənd təsərrüfatı, sahibkarlığın inkişafı, ərzaq təhlükəsizliyinin təmin olunması, yeni iş yerlərinin açılması, mütərəqqi metodlardan və texnologiyalardan istifadə olunması sahəsində mühüm layihələrin hazırlanıb həyata keçirilməsinə imkanlar yaradır. Sahibkarlığın İnkişafı Fondu tərəfindən təkcə son aylar 600-ə yaxın biznes layihəsinin maliyyələşdirilməsi üçün 32.1 milyon manat güzəştli kredit ayrılıb ki, bu da bilavasitə sahibkarlığın inkişafına xidmət edir. Çox yaxşı haldır ki, güzəştli kreditdən yararlanmış layihələrin 96.5 faizi, həmin kreditlərin ümumi məbləğinin isə 75 faizi regionlarda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin payına düşür. Sənaye parkları, aqroparklar və texnoparkların yaradılması, sahibkarlara torpaq, su, enerji və digər resursların münasib şərtlərlə təqdim edilməsi inkişaf üçün stimuldur və sahibkarlar bundan lazımi qaydada bəhrələnirlər.



Komitə sədri vurğulayıb ki, dövlətin dəstəyi, qayğı və diqqəti olmadan şəxsi təşəbbüslər sayəsində sahibkarlığı inkişaf etdirmək, iqtisadi uğurlara nail olmaq mümkün deyil: "Prezident İlham Əliyevin ölkədə kənd təsərrüfatının inkişafına, sahibkarlara göstərdiyi qayğının ifadəsidir ki, bu sahə yüksələn xətlə irəliləyir və insanların maddi rifahına, məşğulluğuna öz töhfəsini verir. Milli Məclisin, Kənd Təsərrüfatı Nazirliyinin, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, Qida Təhlükəsizliyi Agentliyinin keçirdikləri birgə tədbirlər, dinləmələr, forumlar, yerlərdə keçirilən görüşlər də bilavasitə aqrar sahənin inkişafına, sahibkarlara dəstək verilməsinə istiqamətləndirilib.

Müvafiq orqanların birgə səyləri, ölkədə sahibkarlara yaradılan imkan və şərait gələcək nəticələrdə də özünü göstərəcək və aqrar sektor iqtisadiyyatımızın yüksəlişində öz rolunu daha səmərəli yerinə yetirəcək, qeyri-neft sektorunun ən aparıcı sahəsinə çevriləcək.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

**20 İyun Qaz Təsərrüfatı İşçilərinin Peşə Bayramı Günüdür**

# Yerin altından dağların zirvəsinə

## Azərbaycan qazlaşdırmanın yüksək səviyyəsinə görə dünyanın azsaylı ölkələri sırasındadır

Hər il iyunun 20-si ölkəmizdə qaz təsərrüfatı işçilərinin peşə bayramı günü kimi qeyd edilir. Bu barədə Prezident İlham Əliyev 2006-cı il iyunun 12-də sərəncam imzalayıb. Sözügedən faktın özü də göstərir ki, dövlətimiz ölkənin qaz təsərrüfatını daim diqqət mərkəzində saxlayır və bu sahədə çalışanların əməyini yüksək dəyərləndirir.



Öncə Azərbaycanda qaz təsərrüfatının yaranması və inkişafı tarixinə ötəri bir nəzər salaq. Respublikamızda qaz təsərrüfatının yaranması ötən əsrin 20-ci illərinə təsadüf edir. Bununla belə, qaz təsərrüfatımız rəsmən keçmiş SSRİ Xalq Komissarları Sovetinin 1936-cı ildə qəbul etdiyi qərar əsasında həmin ildən etibarən fəaliyyət göstərib.

Lakin Azərbaycanda qaz təsərrüfatının əsl inkişaf tarixi 1969-cu ildən - Ümummilli Lider Heydər Əliyev birinci dəfə hakimiyyətə gəldikdən sonra başlanıb. Məhz XX əsrin 70-ci illərində respublikamızın ərazisinin böyük hissəsi təbii qazla təmin edilib. 80-ci illərin sonu-90-cı illərin əvvəllərində baş verən məlum hadisələr isə əksər sahələr kimi qaz təsərrüfatında da tənəzzülə, dağıntılara səbəb olub.

2003-cü ildən bəri Prezident İlham Əliyevin rəhbərliyi ilə qaz təsərrüfatının yenidən qurulması, bu sahənin maddi-texniki təminatının yaxşılaşdırılması istiqamətində genişmiqyaslı işlər görülüb. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, regionların sosial-iqtisadi inkişafına yönəldilən I Dövlət Proqramı (2004-2008-ci illər) çərçivəsində ölkə üzrə ümumi uzunluğu 2562 kilometr olan müxtəlif diametrli qaz xətləri çəkildi, qazla təmin edilən rayonların sayı 35-dən 57-yə çatdırıldı. Sovet dövründə qazlaşdırılmayan Lerik və Yardımlı kimi yüksək dağlıq rayonlara qaz xətti çəkildi.

Qazlaşdırma növbəti dövlət proqramlarında da önəmli yer tutdu. Bunun nəticəsidir ki, son 21 ildə ölkədə qazlaşdırılan kənd və qəsəbələr saysız-hesabsızdır.

Hazırda ölkədə qazlaşdırmanın səviyyəsi 96,5 faizi ötüb. Başqa sözlə, ötən dövr ərzində qaz xətləri ən ucqar dağ kəndlərinədək çatıb. Bunların bir çoxu sovet döneminin ən inkişaflı illərində belə mavi yanacaqdan istifadə edə bilməmişdi.

Onu da qeyd edək ki, dağların başında məskən salmış kəndlərə qaz xətti çəkmək o qədər də asan iş deyil. Bu həm maliyyə baxımından, həm də texniki cəhətdən çətindir. Tək bir misal gətirək. Azərbaycanın şimalında, Böyük Qafqaz sıra dağlarının cənub yamacında dəniz səviyyəsindən 1500 metr hündürlükdə yerləşən İsmayıllı rayonunun Lahıc kəndi Babadağ və Niyaldağ silsilələri ilə əhatə olunub. Çətin coğrafi mövqedə yerləşməsinə baxmayaraq, bu kənd hələ 7 il əvvəl qazla təchiz olunub. Eləcə də Qaraqaya, Gəndob, Namazgah kəndləri...

Bu və digər dağlıq relyefdə texnikanın işləməsi çətinləşir, bəzən hətta lazım olan nöqtəyə işçilər boruları əllə daşımalı olur, şaxtalı, qarlı havalar vəziyyəti mürəkkəbləşdirir. Bütün bunlara baxmayaraq, indi bizim dağlarla, meşələrlə əhatə olunmuş yüzlərlə kəndimizin mavi yanacağı var. Bu, bizim səriştəli, yorulmaz qaz təsərrüfatı işçilərimizin əməyi sayəsində mümkün olub.

Ümumiyyətlə, ölkəmizdə qazlaşdırma dövlət siyasətinin ayrılmaz hissələrindən birini təşkil edir. Azərbaycanda qazlaşdırmanın səviyyəsi bir sıra inkişaf etmiş ölkələrdə, eləcə də qonşularımızda olduğundan yüksəkdir. Bununla belə, həmin istiqamətdə işlər davam edir.

"Biz imkanlardan maksimum istifadə etməliyik ki, bu gün hələ də qaz almayan qəsəbələrə, kəndlərə qaz xətləri çəkək". Bu, Prezident İlham Əliyevin qarşıda qoyduğu mühüm vəzifələrdəndir. Odur ki, ötən bir neçə ildə də geniş ərazilərdə qazlaşdırma aparılıb. Bir çox meşəətrafı kənd, eləcə də mənbədən uzaq olan yaşayış məntəqəsi qaz alıb. Paytaxtımızda isə qazı olmayan iri yaşayış məntəqəsi qalmayıb.

Nə xoş ki bu gün yenidən qurulan Qarabağda və Şərqi Zəngəzurda da evlərdə mavi alov şölələnir!

Dövlət başçısı diqqəti daim qazlaşdırmanın təkcə kəmiyyətinə deyil, həm də təchizatın, xidmətin səviyyəsinə yönəldir. Ona görə bu sahədə də ardıcıl tədbirlər həyata keçirilir. Məsələn, 2023-cü ilin sonundan SOCAR-ın dəstəyi ilə "Azəriqaz" İstehsalat Birliyi yeni "QAZandım" transformasiya layihəsinə start verib. Bu layihənin icrası qaz təsərrüfatı sahəsində strukturun təkmilləşdirilməsinə, insan kapitalının və korporativ mədəniyyətin formalaşmasına, ətraf mühitə ziyan vurmadan təbii qazdan istifadə edən bütün istehlakçıları fasiləsiz, keyfiyyətli və təhlükəsiz qaydada mavi yanacaqla təchiz etməklə müştəri məmnuniyyətinə nail olmağa təkan verəcək. "QAZandım" layihəsində əhalinin təbii qazla təmin edilməsi ilə yanaşı, ölkənin mövcud qaz şəbəkəsi sisteminin ayrı-ayrı hissələrinin yenidən qurulmasına, avadanlıqların istismara yararlı halda saxlanılmasına yönəldilmiş texnoloji və texniki tədbirlərin görülməsi, eləcə də yeni qaz kəmərlərinin tikintisi nəzərdə tutulub.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Bonnda Tərəf Olmayan Tərəfdaşlarla Bakıdan Belemə Yol Xəritəsi üzrə məsləhətləşmələr keçirilib

İyunun 19-da Bonn İqlim Dəyişikliyi Konfransı çərçivəsində Tərəf Olmayan Tərəfdaşlarla Bakıdan Belemə Yol Xəritəsi üzrə məsləhətləşmələr keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransın açılışında COP29-un Baş danışıqçısı Yalçın Rəfiyev bildirib ki, bu gün bir araya gəlməkdə əsas məqsəd baxış və tövsiyələri dinləmək, rəy və təklifləri birgə təhlil etməkdir.

"COP29 sədrliyi olaraq biz inklüziv və şəffaf yanaşmaya sadiqliyimizi qoruyuruq. Məhz buna görə də COP30-un gələcək sədrliyi ilə birgə bu prosesi mandatdan kənara çıxararaq tərəf olmayan iştirakçılar üçün də açıq etmişik.

Bu günə qədər məsləhətləşmələrə verdiyiniz töhfəyə görə, xüsusilə də göndərdiyiniz yazılı təkliflərə görə minnətdarıq.

Lakin etiraf etməliyik ki, daha çox dəstəyə ehtiyacımız var - xüsusən çoxtərəfli inkişaf bankları və beynəlxalq maliyyə institutlarından. Onlar kapitalın maya dəyərinin azaldılması, borc yükünün yüngülləşdirilməsi və dünən müvafiq tərəflərin səsləndirilmiş olduğu digər prioritet istiqamətlərdə bizə mühüm dəstək göstərə bilərlər. Biz onların da bu prosesə sahib çıxmasını və real həll yolları təqdim etməsini istəyirik.

Dünən keçirilən sessiyada tərəflərin nümayəndələrinin nümayiş etdirdiyi iradə və qətiyyət bizi ruhlandırdı. Bir çox tərəf vurğuladı ki, Bakıda əldə olunmuş nəticələr yenidən danışıqlara açıq deyil.

Məhz bu səbəbdən sənədin danışıqsız, məsləhət xarakterli formatda saxlanması bizə müxtəlif həll yolları təklif etmək imkanı verir. Bu isə "hamı üçün eyni model" prinsipindən uzaq duraraq daha çevik yanaşma təmin edir.

Son bir il bizim üçün asan olmadı. COP29-un əsas mandatlarından olan Yeni Kollektiv Kəmiyyət Hədəfi (NCQG) üzrə çoxillik prosesin uğurla yekunlaşdırılması və digər mühüm məsələlərin həllini təmin etmək bizim üzərimizə düşürdü.

COP28, COP27 və ondan əvvəlki COP-ların uğurlarına əsaslanaraq, qlobal iqlim fəaliyyətində ardıcıllığı və davamlılığı təmin etmək üçün növbəti məntiqi addımı atmaq istədik.

Əvvəldən bəyan etmişdik ki, yeni iqlim maliyyəsi məqsədi həm ədalətli, həm də iddialı olmalıdır. COP29 komandası bu



məqsədə çatmaq üçün aylarla fasiləsiz çalışdı.

Struktur, donorlar və məbləğ kimi bir-birinə bağlı məsələlər üzrə mövcud fikir ayrılıqlarını aradan qaldırmalı olduq. Aydın şəkildə görünürdü ki, qlobal maliyyə arxitekturasının yenidən qurulması üçün güclü keyfiyyət meyarlarına ehtiyac var. Nəticədə biz Bakı Maliyyə Məqsədi üzrə çoxdan gözlənilən razılaşmanı əldə etdik.

Bu yeni məqsəd əvvəlki hədəfi üç dəfə artırdı və 2035-ci ilə qədər inkişaf etməkdə olan ölkələr üçün hər il azı 300 milyard ABŞ dolları vəsaitin səfərbər olunması öhdəliyini ortaya qoydu. Qeyd etməliyəm ki, bu, BMT prosesi çərçivəsində indiyədək qəbul edilmiş ən böyük maliyyə hədəfidir.

Bu, maliyyə bazarlarına güclü siqnal verir və uzunmüddətli planlaşdırma üçün daha çox sabitlik təmin edir.

NCQG qərarı, həmçinin 2035-ci ilə qədər bu məbləği illik 1,3 trilyon ABŞ dollarına qədər artırmaq kimi iddialı məqsədi də qarşıya qoydu.

Beləliklə, biz milyardlardan trilyonlara keçidi təmin etmiş olduq.

Bu komponentlərin hamısı birlikdə Bakı Maliyyə Məqsədi ilə iqlim maliyyəsində yeni bir dövrün başlanğıcını qoydu.

Bu yeni dövrün astanasında, Bakıda biz "Bakıdan Belemə Yol Xəritəsi"ni başladıq - məqsədimiz 1,3 trilyona çatmaq üçün aydın addımlar və mexanizmləri müəyyən etməkdir.

Bu gün isə istəyirik ki, bu yol xəritəsi qlobal iqlim icmasının ehtiyac və gözləntilərinə cavab versin", - deyə Yalçın Rəfiyev vurğulayıb.

Daha sonra çıxış edən COP29-un İqlim dəyişmələri üzrə yüksəksəviyyəli çempionu Nigar Arpadarai bildirib ki, Azərbaycan 300 milyard dollarlıq tarixi maliyyə öhdəliyinin həyata keçirilməsində böyük rol oynayıb: "Bu, bizim üçün qürurvericidir. Üstəlik, Bakıda daha iddialı bir hədəf - 1,3 trilyon dollar elan olundu. Bu, indiyədək görülmüş ən böyük maliyyə öhdəliyidir. Bu rəqəmlər ilhamvericidir, lakin təkcə rəqəmlər kifayət etmir. Qarşılaşdığımız ən böyük risklərdən biri odur ki, daha çox imkana - maliyyə resurslarına, biliyə və texnologiyaya sahib olanlar üstünlük qazanaraq nəticələri öz xeyirlərinə yönəldə, digərlərini isə kənarda qoya bilərlər. Bu, baş verməməlidir. Əhatəlilik gördüyümüz hər bir işin mərkəzində olmalıdır. Hər bir səs - xüsusilə tez-tez eşidilməyənlər - dialoqun və həllərin bir hissəsi olmalıdır.

Müzakirələrdən aydın olan budur ki, bu yol xəritəsi daha geniş tərəfdaşlar cəmiyyətini cəlb etməlidir. İqlim üzrə çempionlar olaraq biz kiçik və orta sahibkarlıq subyektlərini, vətəndaş cəmiyyətini, özəl sektoru və fərdi yenilikçiləri mərkəzə gətirdik.

Əsas nəticə belədir ki, bu yol xəritəsi həyati əhəmiyyət daşıyır.

Özəl sektor üçün əlverişli şərait və stimullar yaradılmalıdır. İqlim layihələrini dəstəkləyəcək potensial qurulmalıdır", - deyə Nigar Arpadarai əlavə edib.

# Ermənistanın ittihamları qərəzli və əsassızdır

Hər fürsətdə Azərbaycana qarşı ittihamlar səsləndirən Ermənistan regiondakı hadisələrdən də ölkəmiz əleyhinə istifadə etrməyə çalışır. Bu dəfə isə Azərbaycana qarşı İsrailə dəstəklə bağlı əsası olmayan ittihamlar irəli sürür.



Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında bildirib ki, Ermənistanın İsrail-İran toqquşmasında Azərbaycanı hər hansı bir formada ittiham etməsi qərəzli və absurddur. Azərbaycan hər zaman regionda sülhü təşviq edir və qonşuluğunda hansısa bir toqquşmanın olmasını arzulamır. "Bu gərginliyin regionda sabitliyin pozulmasına təsir etmək riski böyükdür. Həm iqtisadi, həm sosial, həm ətraf mühit, həm də digər məsələlər baxımından qonşuluqda baş verən hadisələr sərhəd ölkə kimi təhlükəsizliyə təhdiddir. Üstəlik, İranda 40 milyona yaxın azərbaycanlı yaşayır. Bundan əlavə, Ermənistanın işğalı nəticəsində uzun illərdir blokadada qalan Naxçıvanın qaz təminatı da İran tərəfindən aparılır və qarşıdurma bu təminatda artıq fasilələrə səbəb olub", - deyə o bildirib.

Deputat qeyd edib ki, Azərbaycan öz ərazisindən hər hansı bir ölkəyə qarşı istifadə edilməsinə heç vaxt icazə verməyib və verməyəcək. Azərbaycan tərəfi toqquşmadan narahatlığını rəsmi olaraq bildirib, bununla bağlı bəyanat verilib. Vəziyyətin gərginləşdirilməsini qəti şəkildə pisləyərək, tərəflərin ziddiyyətli məsələləri yalnız beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində diplomatik yolla həll etməyə dəvət edib.

P.Vəliyeva bildirib ki, Ermənistan bu məsələdən də ölkəmizə qarşı istifadə etməyə çalışır. Belə ki, dezinformasiyalar yayaraq İran ictimaiyyətini aldatmağa cəhdlər göstərir. Müasir texnologiyalar və müşahidə imkanları onların yalan məlumatlar tirajladığını sübut etmək imkanındadır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Vətən müharibəsində Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki infrastrukturuna ziyan vurması ilə bağlı sənədlər məhkəmədə tədqiq olunub

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası iyunun 19-da davam etdirilib.



AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmə iclasında dövlət ittihamçısı Vüsal Abdullayev təqsirləndirilən şəxs David Manukyana növbəti suallar verib. O, əvvəlcə Azərbaycanın vaxtilə Ermənistan tərəfindən işğal olunmuş ərazilərində mina basdırılması ilə bağlı sualları cavablandırıb.

Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçusu olmuş, müxtəlif vəzifələr tutmuş, general-mayor ali hərbi rütbəsində xidmət etmiş, Azərbaycanın vaxtilə işğaldakı ərazilərində keçmiş qondarma rejimin "ordusu"nda (Ermənistan silahlı qüvvələrinin ən böyük silahlı birləşməsində - red.) "komandanın birinci müavini" olmuş Ermənistan vətəndaşı David Manukyan Birinci Qarabağ müharibəsində mina basdırılması və təmizlənməsi ilə məşğul olmadığını bildirib. Təqsirləndirilən şəxs daha sonra deyib: "Şərti dinc dövrlərdə hərbi hissədə komandir olduğum zaman o qədər çox olmasa da, minalarla bağlı hadisələr (mina basdırılmasını nəzərdə tutur - red.) baş verib. Formulyarların və xəritələrin saxlanması ilə bağlı çox aydın şəkildə təlimatlar verilib. Hər bir minalanma işindən əvvəl yuxarı komandanlıq tərəfindən əmr verilirdi".

Onun sözlərinə görə, əmrdə mina formulyarlarının, xəritələrinin, sxemlərinin neçə nüsxədə hazırlanmalı olduğu aydın şəkildə yazılıb. D.Manukyan daha sonra bildirib: "Orada ünvanlar qeyd olunur ki, hansı ünvana nə göndərilsin. Biz də əmrdə qeyd olunan maddələrə əsasən fəaliyyət göstərmişik".

O deyib ki, mina ən yüksək dairədə saxlanılır, aşağılara yuxarıdan paylanır. Hərbi hissəyə nə qədər mina lazımdırsa, o qədər verilirdi. Çünki bunun üçün konkret çıxış nöqtələri müəyyənləşdirilməlidir.

Təqsirləndirilən şəxs prokurorun "Bəs sizdən aşağıda olan diviziya komandirləri sizə məruzə etmədən, korpus rəhbərliyinə məlumat vermədən, öz təşəbbüsləri ilə əraziləri minalaya bilərdilərmi? Bu hüquqları olubmu?" sualına isə "xeyr" cavabını verib.

Təqsirləndirilən şəxs muzdlu hərbçilərlə bağlı sualı da cavablandıraraq qeyd edib ki, Xankəndidə yaşadığı evdə aşkarlanmış "Cəsurlar dəstəsi" Ermənistanın Müdafiə Nazirliyi tərəfindən formalaşdırılıb. Deyib ki, bu, dəstə deyil, bölükdür, Müdafiə Nazirliyi tərəfindən yaradılıb. Dövlət qurumları tərəfindən formalaşdırılıb və müdafiə strukturuna göndərilib.

D.Manukyan xarici vətəndaşların döyüşlərə cəlb olunmalarının hansı əsasla aparılması barədə suala isə belə cavab verib: "Mən onların kimliyini yoxlamırdım. Bu, mənim vəzifə borcum deyil. Mən onlara nəzarət etmək, onların hansı ölkədən gəldiyini müəyyənləşdirmək səlahiyyətində deyildim".

O, əsir və girovların qul kimi işlədilməsi, onlara işgəncə verilməsi hallarının şahidi olmadığını deyib. Bildirib ki, bu məsələ hər kəsin vicdanı üzərindədir - kim onlarla necə rəftar edibsə, o, öz vicdanına görə cavabdehdir. "Mən belə deyim: bu günə qədər mənə qarşı heç bir fiziki zorakılıq olmayıb", - deyə o əlavə edib.

D.Manukyan işğal dövründə Azərbaycanın ekologiyasına ziyan vurulması, yanğınlar törədilməsi barədə suala isə "Tutduğum vəzifənin o məsələlərlə əlaqəsi olmayıb" cavabını verib.

O, 2016-cı ildə baş vermiş Aprel döyüşləri zamanı Ermənistanda, 2020-ci ilin iyulundakı Tovuz döyüşləri vaxtı isə Azərbaycanın vaxtilə işğal altında olan ərazilərində olduğunu bildirib.

2019-cu il dekabrın 26-da imzalanmış əmrlə qondarma qurumun "ordu komandanının birinci müavini" təyin edilmiş D.Manukyan həmin təyinatla bağlı xidmətə 2020-ci il fevralın əvvəlində başladığını bildirib. O, bu təyinatla bağlı namizədliyinin Ermənistan prezidenti, yaxud silahlı qüvvələrin baş qərargah rəisi tərəfindən irəli sürülməsindən xəbəri olmadığını söyləyib.

Təqsirləndirilən şəxs təyinatı ilə bağlı 2020-ci ilin yanvarında Ermənistan baş nazirinin, general-mayor rütbəsi alması ilə bağlı isə Ermənistan prezidentinin qəbulunda olduğunu söyləyib. Əlavə edib ki, həmin vaxt Ermənistanın müdafiə naziri David Tonoyan idi.

D.Manukyan 2020-ci ildə baş vermiş 44 günlük müharibə zamanı qondarma "ordu komandanının birinci müavini" "vəzifəsi"ndə olduğunu deyib və əlavə edib: "Müharibə ilə bağlı mənim vəzifə borcum qısa və konkret şəkildə yazılmışdı. Ehtiyat komanda məntəqəsi yaradılır. Əgər əsas komanda məntəqəsi sıradan çıxarsa, bu zaman müəyyən müddət ərzində rabitə sistemi və komanda qərarlarının icrası məsuliyyəti həmin ehtiyat məntəqəsinin üzərinə düşür".



Təqsirləndirilən şəxs 2020-ci il sentyabrın 27-də Ermənistan tərəfindən təxribatların törədilməsi barədə isə eşitmədiyini iddia edib.

Bu zaman məhkəmədə Ermənistanın həmin vaxt müdafiə naziri olmuş David Tonoyanın fikirlərinin yer aldığı videomaterial erməni dilində tərcüməçinin iştirakı ilə tədqiq edilib. 2019-cu ilə aid videomaterialda D.Tonoyan bildirir: "Mən bir müdafiə naziri kimi o tezisə qarşıyam ki, sülh müqaviləsi ilə əraziləri vermək olar. Bu tezisə qəti şəkildə qarşıyam. Mən burada bu gün yalnız bir tezis irəli sürürəm: yeni müharibə, yeni ərazilər".

Videomaterialda diqqətə çatdırılır ki, görüntülər ABŞ-ın Nyu York şəhərində çəkilib. Qeyd edilir ki, David Tonoyan açıq şəkildə bəyanat verib. O bildirir ki, güzəşt yoxdur, amma kompromis mümkündür. Bundan sonra David Tonoyan hücum tipli hərbi birləşmələr haqqında da məlumat verib: "Biz müdafiə mövqeyindən çıxmalıyıq, çıxacağıq. Səngərlərdən çıxacaq və bu hücum birləşmələri sayəsində hərbi əməliyyatları rəqibin (Azərbaycanın işğal olunmamış ərazilərini nəzərdə tutur - red.) ərazisində keçirəcəyik".

Nyu Yorkda BMT-də mülki geyimdə, axşam isə Ermənistan icması nümayəndələri ilə görüşdə hərbi formada çıxış edən David Tonoyan Ermənistan ordusunda həyata keçirilən və keçiriləcək işlər barədə danışıb, bu işdə diasporun rolundan bəhs edib və deyib: "Mən özüm və Ermənistan silahlı qüvvələri - biz ianə məsələlərindən çox da məmnun deyilik".

Məhkəmədə qondarma rejimin "ordusunun qərargah rəisinin müavini" Kamo Vardanyanın imzaladığı məxfi sənəd də tədqiq edilib. 2020-ci il sentyabrın 25-də imzalanmış 0671 saylı sənəd "Rəqibin yaşayış məntəqələrinin atəşlə məhv edilməsinin qəbul olunması haqqında" əmr adlanır. Sənədə əsasən, birləşmələrin və hərbi hissələrin komandirlərinə 2020-ci il sentyabrın 28-dək ona əlavə olunmuş siyahıda göstərilən yaşayış məntəqələrinin atəşlə məhv edilməyə qəbul olunmasının təmin edilməsi barədə əmr verilib. Əmr edilir ki, atəş üçün mövqelər hesablansın və döyüş tətbiqinə dair sənədlər tam şəkildə tərtib olunub doldurulsun. Sənədlə əmr olunur ki, artilleriya hərbi hissələrində 40 kilometr məsafədə vura bilən raketlərlə atəş açmaq üçün konkret M-21 stansiyası ayrılsın. Bu stansiya üçün nəzərdə tutulmuş 80 raketdən 40-ı daimi döyüş vəziyyətində maşınlarda saxlanılsın. Qalan 40 raket isə döyüş mövqeyinə çıxmazdan əvvəl yüklənsin.

Əmrin icrasına nəzarət "ordunun artilleriya üzrə komandirinin müavini"nə tapşırılıb.

Əmrə "atəşlə məhv edilməyə məruz qalacaq yaşayış məntəqələrinin siyahısı" da əlavə olunub. Siyahıda Azərbaycanın 70-dək yaşayış məntəqəsinin, o cümlədən Gəncə, Mingəçevir, Naftalan şəhərlərinin, Beyləqan, Ağcabədi, Yevlax, Bərdə rayonlarının və kəndlərinin adları yer alıb.

D.Manukyan həmin əmrlə ilk dəfə ibtidai istintaq zamanı tanış olduğunu, İkinci Qarabağ müharibəsində bir sıra təşkilatçılıq məsələləri istisna olmaqla, döyüş əməliyyatlarının planlaşdırılmasında iştirak etmədiyini iddia edib. Əlavə edib ki, 44 günlük müharibə zamanı Ağdərənin şimal ərazisində, Hadrutun bir sıra yaşayış məntəqələrində və digər ərazilərində olub.

Təqsirləndirilən şəxs səfərbərlik məsələləri ilə bağlı təşkilati işlərlə məşğul olduğunu bildirib. Deyib ki, səfərbərliklə döyüşə qoşulanların qeydiyyatı kənd məktəbində aparılıb və orada onlara silah paylanılıb.

O, qondarma qurumun "ordusu" üçün hərbi təyinatların Ermənistandan gəldiyini etiraf edib və söyləyib: "Ehtiyat qurtaranda təminat qeyd etdiyim kimi, bu cür həll olunurdu. Bu, bütün təminat növlərinə, həm texnikaya, həm də canlı qüvvəyə aid idi".

696) Məmmədov Aslan Məmməd oğlu
697) İsmayılov Əlimusa Əli oğlu
698) Əliyev Baris Rəfail oğlu

# REGİONLAR

## Taxıl biçini

## Bu il Ağstafada bol taxıl yetişmişdir

**Ərzaq məhsullarından söz düşəndə ilk növbədə yada taxıl düşür. Bu vacib bitkinin istehsalını artırmaq üçün ölkəmizdə bir sıra məqsədyönlü tədbirlər həyata keçirilir. Taxılçılar bunun hesabına hər il məhsul istehsalını artırmaq üçün bütün imkanlardan maksimum istifadə edirlər.**

Taxılçılıqda uğur qazanan rayonlardan biri də Ağstafadır. Fermerlər hər il yüksək göstəricilərə nail olurlar. Keçən il 8512,1 hektarda taxıl, o cümlədən 2777,6 hektarda arpa, 5734,6 hektarda buğda əkən fermerlər yüksək məhsuldarlığa nail olmuşlar. Rayon üzrə hər hektardan 26,1 sentner arpa, 34,2 sentner buğda götürmüşlər.

Rayon fermerləri bu nəticələri cari ildə artırmaq üçün gərgin əmək sərf edirlər. 2740,5 hektarda arpa, 5178,5 hektarda buğda əkilmiş, zəmilərdə bol məhsul yetişmişdir. Hazırda fermerlər arpa biçini aparırlar. İndiyədək 120 hektar sahədə biçin aparılmışdır. Biçinə fiziki şəxslərə məxsus 11 kombayn cəlb edilmişdir. Yaxın günlər "Aqroservis" ASC tərəfindən ölkənin digər ərazilərindən rayona kombaynların dislokasiyasının həyata keçirilməsi nəzərdə tutulmuşdur. Fermerlər arpa biçinini qısa vaxtda başa çatdırıb, buğda biçininə başlamaq üçün bütün qüvvələri səfərbərliyə almışlar.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Yardımlıda taxıl biçininə hazırlıq işləri başa çatıb



**Yardımlının taxıl sahələrində biçin kampaniyasına hazırlıq işləri başa çatıb. İlkin mərhələdə taxıl biçini nisbətən dağətəyi ərazilərdə arpa sahələrində aparılacaq.**

Rayon statistika idarəsinin rəisi Aydın Ağayevin verdiyi məlumata görə, 2025-ci ilin məhsulu üçün 2 min 644 hektar sahədə taxıl əkilib. Bunun 2 min 207 hektarı buğda, 391 hektarı arpa, 46 hektarı isə vələmirdir.

Hazırda əsas diqqət biçin kampaniyasının vaxtında başa çatdırılmasına yönəlib. Dənli bitkilərin biçilməsini həyata keçirəcək istehsalçıların texnika sarıdan çatışmazlığının aradan qaldırılması üçün biçin kampaniyası növbəlilik əsasında aparılacaq.

Taxılın yığılması, daşınması və saxlanması dövründə yanğın hadisələrinin baş verməməsi üçün təsərrüfatlarda təhlükəsizlik tədbirləri görülüb.

*"Azərbaycan"*

## Yaşıl tarlaların ağ libasa bürünməsinə çox vaxt qalsa da...



### Neftçalada pambıqçılıqla bağlı geniş müşavirə keçirilib

**Neftçalada rayon icra hakimiyyətinin təşəbbüsü ilə Dövlət Aqrar İnkişaf Mərkəzinin, Statistika İdarəsinin, Su Meliorasiya Sistemləri İstismarı İdarəsi rəhbərlərinin, inzibati ərazi dairəsi üzrə nümayəndələrin, bələdiyyə sədrlərinin, xam pambıq tədarük edən şirkətlərin yerli nümayəndələrinin, pambıqçı fermerlərin, Sudan İstifadəedənlər birliklərinin sədrlərinin iştirakı ilə "Pambıqçılıqda mövcud vəziyyət və qarşıda duran vəzifələr" mövzusunda növbəti seminar-müşavirə keçirilib.**

Seminar-müşavirə "Elektron kənd təsərrüfatı informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2019-cu il tarixli fərmanına əsasən, "kənd təsərrüfatı subyektlərinin qeydiyyatı" altsistemi vasitəsilə fermerlərin, kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən subyektlərin qeydiyyatının aparılması, onların fəaliyyəti üzrə tələb olunan məlumatların və sənədlərin daxil edilməsi, torpaq sahələrinin xəritələşdirilməsinin təmin edilməsi ilə bağlı pambıqçı fermerlərin və pambıq tədarük edən şirkətlərin yerli nümayəndələrinin məlumatlandırılması üçün təşkil olunmuşdur.

Rayon icra hakimiyyəti başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Burcalı Ağayev tədbiri giriş sözü ilə açaraq ölkəmizdə qeyri-neft sektorunun, o cümlədən kənd təsərrüfatının strateji sahələrindən hesab olunan pambıqçılığın inkişafı ilə bağlı Prezident İlham Əliyevin qəbul etdiyi qərarlar, verdiyi tapşırıq və tövsiyələr sayəsində ölkəmizdə pambıqçılığın sürətli inkişafına qısa müddətdə əlverişli şərait yaradıldığını, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsini, pambıqçılığın inkişafı ilə bağlı aparılan siyasətin bütün regionlarda olduğu kimi, Neftçala rayonunda da öz bəhrəsini verdiyini qeyd edərək bir sıra məqamları diqqətə çatdırmışdır.

Seminar-müşavirədə Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS) üzərindən pambıq əkininin bəyan edilməsi ilə yanaşı, torpaq sahəsinin xəritələrinin çəkilməsinin təmin olunması, su ehtiyatlarından səmərəli istifadə edilməklə pambıq sahələrinə vegetasiya suyunun vaxtında verilməsi, rayonun su limitini nəzərə alaraq taxıl biçinindən sonra pambıq əkininin aparılması, fərdi qaydada pambıq əkini aparan fermerlərin maarifləndirilməsi, xam pambıq tədarük edən şirkətlərin fermerlərlə bağlanmış pambıq müqavilələrinin şərtlərinə əməl olunması, sudan istifadə ilə bağlı müqavilə əsasında pambığın vegetasiya suyunun növbəlilik prinsipinə əsasən təmin edilməsi mövzusunda geniş müzakirələr aparılmış, müvafiq təlimatlar, tövsiyələr verilmişdir.

Neftçala Dövlət Aqrar İnkişaf Mərkəzinin direktor vəzifəsini müvəqqəti icra edən - direktor müavini Elsevər Əsədov çıxış edərək pambıq əkini həyata keçirən fermerlərin bəyan zamanı xəritələrin çəkilməsi zərurəti, habelə bu istiqamətdə atılmış addımlar, xəritələrin çəkilməsi proseduru, bu zaman yarana biləcək texniki və ya digər çətinliklər, xəritələrin çəkilmədiyi halda məhsul subsidiyasının verilməsində yarana biləcək problemlər barədə pambıqçı fermerləri ətraflı məlumatlandırmışdır.

Neftçala Su Meliorasiya Sistemləri İstismar İdarəsinin müdiri Təbriz Eyyubov isə 2025-ci ildə rayon ərazisində xam pambıq tədarükü edən şirkətlər - "Prime Cotton", "P-Aqro", "Azərpambıq ASK", "Aztəsərrüfat" MMC ilə bağlanmış müqavilələr əsasında 1415 fermerin becərdiyi 7 min 116 hektar pambıq əkininin suvarma suyu ilə təmin olunmasından, fərdi qaydada becərilən pambıq sahələrinin su ilə təmin edilməsindən, o cümlədən suvarma dövründə görülən işlərdən geniş söhbət açaraq bir sıra məsələləri diqqətə çatdırmışdır.

Həmin şirkətlər adından çıxış edən "P-Aqro" MMC Neftçala rayon bölməsinin müdiri Mustafa Əliyev 2025-2026-cı ilin məhsulu üçün rayon ərazisində 335 nəfər fermerlə 1300 hektar sahədə pambıq əkini ilə əlaqədar müqavilə bağlandığını, bəyan olunmuş 1300 hektar torpaq sahəsində şirkət tərəfindən naturada torpaq sahələrinin xəritələrinin çəkilərək başa çatdırılmasını, vegetasiya suyunun verilməsində çətinliklərin olmamasını, fermerlərlə bağlanmış müqavilə şərtlərinə əsasən müvafiq tədbirlərin görülməsini diqqətə çatdırmışdır.

Tədbirdə pambıq əkini bəyan olunmuş torpaq sahələrinin xəritələşdirilməsinin təmin edilməsi ilə bağlı pambıqçı fermerlərə, xam pambıq tədarük edən şirkətlərin yerli nümayəndələrinə müvafiq tövsiyələr verilmiş, xəritəçəkmə prosesi ilə bağlı sual doğuran fikirlərə aydınlıq gətirilmişdir. Sudan İstifadəedənlər birliklərinin sədrlərinə, pambığın vegetasiya dövründə fermerlərə suyun vaxtında və növbəlilik əsasında verilməsi, su müqaviləsinin şərtlərinə əməl olunması ilə əlaqədar müvafiq tövsiyələr verilmiş, eyni zamanda fermerləri düşündürən, narahat edən məsələlər dinlənilmiş, qarşılıqlı fikir mübadiləsi aparılmış, səsləndirilən təkliflər nəzərə alınaraq tədbirlərin görüləcəyi bildirilmişdir.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Xocalıya köçürülmüş sakinlərdən 350-dən çox şəxs məşğulluq tədbirlərinə cəlb olunub



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi Xocalı şəhəri və Xocalının Ballıca kəndinə köçürülmüş sakinlərdən artıq 351 şəxsi məşğulluq tədbirlərinə cəlb edib.**

Onlardan 333-nün rayon ərazisində məşğulluğu təmin edilib (o cümlədən rayona köçürülmüş sakinlərdən 71 nəfər üçün özünüməşğulluq proqramı üzrə kiçik təsərrüfatlar yaradılıb), 18 sakin isə peşə kurslarına cəlb edilib.

Hazırda daha bir qrup sakinin məşğulluğuna dəstək işləri aparılır. Onların məşğulluq imkanları qiymətləndirilir və hansı məşğulluq proqramına cəlb olunacaqları müəyyən edilir.

## Masallıda 5 yaşayış məntəqəsini birləşdirən yolun tikintisi davam edir

**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi Masallı rayonunda uzunluğu 23 km olan Xıl-Sirəbil-Çayqıraq-Molalan-Allahyarlı marşrutu üzrə avtomobil yollarının əsaslı şəkildə yenidən qurulması işlərini davam etdirir.**



Layihənin məqsədi yolboyu yaşayan əhalinin rahat və təhlükəsiz hərəkətini təmin etmək, yük və sərnişin daşımalarını asanlaşdırmaqdır.

Tikinti işləri layihəyə uyğun texnoloji ardıcıllıq və yüksək keyfiyyətlə icra olunur. Əraziyə kifayət qədər canlı qüvvə və texnika cəlb edilib. Əvvəllər yararsız asfalt, torpaq əsaslı və çınqıl örtüklü olan yol 4-cü texniki dərəcəyə uyğun olaraq yenidən qurulur.

Artıq 8,2 km uzunluğundakı Xıl-Sirəbil hissəsində torpaq işləri yerinə yetirilib, suötürücü boruların quraşdırılması isə son mərhələdədir. Molalan (3,5 km) və Allahyarlı (6,4 km) hissələrində torpaq işləri, yol yatağının genişləndirilməsi və suötürücü boruların quraşdırılması başa çatıb.

Layihəyə əsasən, Molalan (2,9 km-də) və Çayqıraq (1,1 km-də) hissələrində mövcud körpülərin təmiri, Xıl-Sirəbil hissəsində isə (6,7 və 6,9 km-də) iki yeni körpünün inşası nəzərdə tutulub.

## Aqrar sektorda istehsalı artırmağın səmərəli yolu

### Müasir texnologiyalar və yeni üsullar hesabına məhsuldarlıq yüksəldilməlidir

**Dünyada iqlim dəyişikliyinin ən çox ziyan vurduğu sahələrin önündə aqrar sektor gedir. Səbəb məlum və sadədir: nə qədər yeni texnologiya və məhsuldar sortlardan istifadə olunsa da, məhsulun yetişməsində iqlim mühüm rol oynamaqda davam edir. Belə hal açıq tarlada yetişdirilən məhsullara daha çox aiddir.**

Ancaq o da sübut olunub ki, əkinçilikdə istifadə edilən müasir texnologiyalar və yeni becərmə üsulları, həmçinin məhsuldar sortlar sayəsində qlobal miqyasda məhsuldarlığı artırmaq mümkündür. Hazırda dünyada aqrar sektorun inkişafının bunun üzərində qurulmasının səbəbi də budur. İkincisi də, sadəcə başqa yol yoxdur.

Ayrı-ayrı ölkələr aqrar sektorda innovasiyalardan geniş istifadə etməklə yüksək məhsuldarlıq əldə etməyə nail olurlar. Məsələn, dünyada taxılçılıqda 60 sentnerdən 90 sentnerə qədər yüksək məhsuldarlığa nail olan təsərrüfatlar var. Ancaq Azərbaycanda fermerlər (aqroparklar və iri fermer təsərrüfatları istisna olmaqla) 1 hektardan 32 sentnerdən çox məhsul əldə edə bilmirlər. Bu faktın özü bizim təsərrüfatların məhsuldarlıqda nə qədər geri qaldığını göstərir.

Bəs biz bu geriliyə son qoya bilərikmi? Qoya bilməriksə, səbəb nədir? Bu yerdə Azərbaycanda geniş yayılmış, əslində, bəlaya çevrilmiş bir məsələyə toxunmaq istərdik. Dünyada aparılan elmi araşdırmalar təsdiq edib ki, biçindən sonra əkin sahələrinin yandırılması mənfi fəsadlar doğurur. Aparılan elmi araşdırmalar göstərir ki, kövşənin yandırılması torpağın məhsuldarlığını xeyli azaldır. Buna baxmayaraq, aqrar biliyə az sahib olan taxılçılarımız hələ də dədə-baba qaydasından yaranan yanlışlığı davam etdirirlər. Daha dəqiq desək, əkin sahələrini öz əlləri ilə tədricən sıradan çıxarırlar.

Dünyada əkinçilik mədəniyyəti deyilən bir ifadə var. Nədənsə ölkəmizdə buna əhəmiyyət verilmir, əkib-becərməyə kor-koranə yanaşılır. Unutmayaq ki, torpaq da canlıdır, bütün canlılar kimi o da qayğı və qulluq tələb edir.

Bu gün Azərbaycan fermeri deyə bilməz ki, dövlət ona dəstək vermir. Ölkəmizdə istehsalçı kəndliyə edilən güzəştləri sayıb qurtarmaq olmur. O ki qaldı həmin dəstəkdən səmərəli istifadə etməyə, bu, başqa bir problemdir. Hər halda səmərəli istifadə edilsəydi, məhsuldarlıq belə aşağı olmazdı.



Hesablama Palatası tərəfindən aparılan təhlillər göstərir ki, dövlət büdcəsindən bitkiçilik sahəsinə verilmiş subsidiyaların cəmi, eləcə də 1 hektara düşən subsidiya məbləğləri 2020-ci ildən başlayaraq davamlı şəkildə artdığı halda, 1 hektara düşən istehsal edilmiş bitkiçilik məhsullarının dəyəri 2024-cü ildə 2023-cü illə müqayisədə 434,1 manat (13 faiz) azalıb. Təhlillərdə eyni zamanda qeyd edilib ki, çoxillik əkmələrlə birlikdə kənd təsərrüfatı bitkilərinin cəmi əkin sahəsi 2023-cü illə müqayisədə ötən il 345,4 min hektar (19,4 faiz) artaraq kənd təsərrüfatına yararlı torpaq sahələrinin əvvəlki illə müqayisədə daha çox hissəsini (89,9 faizini) təşkil etməsinə baxmayaraq, nəticə göstəricilərində (məhsuldarlıq, istehsal) artım olmayıb.

Aparılan təhlillər müvafiq tendensiyanın heyvandarlıqda da olduğunu göstərib. Belə ki, Aqrar Kredit və İnkişaf Agentliyinin xətti ilə süni mayalanma yolu ilə doğulmuş hər baş buzova 100 manat məbləğində subsidiyanın verilməsinə və damazlıq heyvanların dəyərinin 60 faizinə güzəştin tətbiq olunmasına baxmayaraq, ölkə üzrə qaramalın və qoyun-keçilərin baş sayı 2016-cı ildən başlayaraq (2020-ci ilin yekunu istisna olmaqla) davamlı surətdə azalaraq 2024-cü ilin sonuna müvafiq olaraq 2 milyon 459,7 min və 6 milyon 850,2 minə düşüb.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Sumqayıt çimərlikləri mövsümə hazırdır

### İyunun 15-dən açıq elan olunan çimərliklərə giriş ödənişsizdir

**Sumqayıt Şəhər İcra Hakimiyyətində şəhər və qəsəbələrdəki Xəzərsahili çimərliklərdə əhalinin istirahətinin təşkili ilə bağlı geniş tərkibli tədbir keçirilib.**



Aidiyyəti qurumların və sahə inzibati ərazi dairələri üzrə icra nümayəndələrinin, xidmət sahələrinin rəhbərləri və sahilyanı zonalarda fəaliyyət göstərən sahibkarların iştirak etdikləri tədbirdə bildirilib ki, yay mövsümündə əhalinin səmərəli istirahətinin təmin olunması, ictimai təhlükəsizliyin və sanitar-gigiyenik normalara əməl edilməsi vacibdir. Qeyd olunub ki, şəhər rəhbərliyinin 29 may 2025-ci il tarixli qərarına əsasən, Sumqayıtın və ətraf qəsəbələrin sahilyanı ərazilərində yerləşən çimərliklərin fəaliyyətinin təşkilinə dair tapşırıqlar verilib və bu istiqamətdə hazırlıq işləri yekunlaşıb.

Təyin olunmuş qurumlar - Mənzil-Kommunal Təsərrüfatı İstehsalat Birliyi, sahə nümayəndəlikləri, "Sumqayıt Bulvar" MMC və digər strukturlar tərəfindən sahilyanı zonalarda abadlıq və təmizlik işləri aparılıb, infrastrukturların fəaliyyətə hazır vəziyyətə gətirildiyi bildirilib. İyunun 15-dən etibarən bütün çimərliklərin fəaliyyətə başladığı vurğulanıb.

İclasda çıxış edən müvafiq qurumların nümayəndələri ərazilərdə xilasetmə məntəqələrinin, iaşə və ticarət obyektlərinin təşkili, sanitar-gigiyenik vəziyyətin qorunması, nəqliyyat marşrutlarının təşkil olunması və əhalinin maneəsiz istirahətinin təmin olunması istiqamətində görülmüş və nəzərdə tutulan tədbirlər barədə məlumat veriblər.

Çimərliklərə girişin pulsuz olduğu bir daha diqqətə çatdırılıb. Bildirilib ki, fiziki şəxslər və sahibkarlar tərəfindən yalnız göstərilən xidmətlərə görə haqq alınacaq, digər hallarda istirahət üçün əlavə rüsum yığılmasına yol verilməyəcək. Aidiyyəti qurumlara bu qaydalara ciddi nəzarət etmələri tapşırılıb.

İclasda həmçinin sahibkarlara sahilyanı ərazilərdəki obyektlərinin vizual görünüşünün yaxşılaşdırılması, hasar və divarların yenilənməsi, yaşıllıqların artırılması və tullantıların vaxtında daşınması ilə bağlı tövsiyələr verilib. Sonda qeyd olunub ki, yay mövsümü ərzində çimərliklərdə xidmətin keyfiyyətinin yüksəldilməsi, ictimai asayişin təmin olunması, dəniz və sahilyanı ekosistemin qorunması istiqamətində işlər davamlı şəkildə aparılacaq.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*



# Mədəniyyət



Teatr xadimlərimiz

# Səhnəmizin "Qoçu Əsgər"i

**O, yaratdığı obrazlara əbədiyaşarlıq ömrü verən əsl sənətkar, bənzərsiz səhnə ustası idi. İfa etdiyi bütün rollar qısa müddətdə məşhurlaşaraq tamaşaçıların sevimlisi olurdu. Yaratdığı obrazları ondan sonra ifa etmək mümkün deyil. Hər bir obraza sanki öz möhürünü vurub.**

Görkəmli teatr və kino aktyoru, canlandırdığı obrazlarla mədəniyyət tariximizi zənginləşdirən aktyorlardan biri, səhnəmizin "Qoçu Əsgər"i Möhsün (Sənani) Sadıq oğlu Cəfərovdan bəhs edirik. O, 1900-cü il iyunun 19-da Tiflisin "Şeytanbazar" məhəlləsində anadan olub. Atası Sadıq kişi rozəxanlıq edərmiş. Möhsün Sənani kiçik yaşlarında ata-anasını itirdiyi üçün nənəsinin himayəsində böyüyüb. Nənəsinin arzusu onu gələcəkdə atası kimi mərsiyəxan görmək idi. Elə bu məqsədlə də onu ruhani təhsili almaq üçün 1906-cı ildə mədrəsəyə qoyur.

Dörd-beş yaşlarında valideynlərinin itirən Möhsün Sənaninin nənəsi də 1908-ci ildə vəfat edir. Həyatın acılarını çiynində daşıyan gələcək aktyoru xalası molla Ziynət öz himayəsinə götürür. Sonralar o, uşaqlıq illərini xatırlayarkən həmişə xalası Molla Ziynətin Möhsünü öz uşaqlarından çox istədiyini deyərdi. Xatırladaq ki, Molla Ziynət Azərbaycanın Xalq artisti Əli Qurbanovun anasıdır. Ziynət xanımın özünün ailə üzvlərinin çox olmasına, maddi vəziyyətinin heç də yaxşı olmamasına baxmayaraq, Möhsünə və bacısına öz doğma övladı kimi baxırdı. Möhsünün yaşı az olsa da, xalasına yük olduğunu düşünüb bundan xəcalət çəkir, ailəyə kömək etmək üçün çıxış yolu axtarırdı. Odur ki, 1909-cu ildən işləməli olur. Möhsünü bir gürcü dostunun atası tramvay parkında işə düzəldir. O, aldığı maaşla özünü, bacısını təmin etməklə yanaşı, xalasına da kömək edib ailənin vəziyyətini yüngülləşdirir.

Mərhum aktyorun qızı Bakı Dövlət Universitetinin rus dili müəllimi Gülər xanım atasının uşaqlıq illərindən danışarkən demişdir: "O, "Şeytanbazar"da hər cür əzab-əziyyətə və böyük zəhmətə qatlaşıb. Uşaq olanda valideynlərini itirən atamı və bibimi xalası saxlayıb. Atam 15 yaşına qədər Tiflisdə yaşayıb, hamballıq edib, konduktor işləyib, zirvəyə çatana qədər min əzabdan keçib".

Yeniyetməlik yaşlarından səhnəyə maraq göstərən Möhsün Sənani yerli teatrların və Tiflisə qastrola gələn artistlərin tamaşalarını böyük həvəslə izləyirdi. O zaman dərvişlər meydanlarda xoş avazla oxuyarmışlar. Bu zaman Möhsün Sənani onları heyranlıqla dinləyər, sonra da təqlid edərmiş.

İlk dəfə 1911-ci ildə aktyor böyük izdiham qarşısında çıxış edir. Bənzərsiz istedadı



ona ilk çıxışı zamanı dinləyicilərin qəlbinə yol tapmaq imkanı qazandırır. Beləliklə, Möhsün Sənani 1912-ci ildə kiçik həvəskarlar dərnəyinə qoşulur və bu dərnəkdə birpərdəli səhnələrdə müxtəlif rolları canlandırır. Möhsünün ilk rejissoru Tiflis müsəlman artistləri dəstəsinin komik aktyoru Mirzəxan Quliyev olub. Mirzəxan Quliyev və Möhsün Sənaninin canlandırdığı obrazlara tamaşa edən, Tiflis teatrında çalışan Mirzəli Abbasov, Mustafa Mərdanov, İbrahim İsfahanlı kimi görkəmli aktyorlar onun istedadına ümid edirlər. Böyük sənətkarların ona olan inamını hiss edən Möhsün Sənaninin səhnəyə olan marağı daha da artır. Möhsün Sənanini xalqa sevdirən onun bənzərsiz sənətkarlığı, fitri istedadı, qayğıkeş olması idi. M.Sənani aktyora çox vacib olan oxumaq, oynamaq, musiqi alətlərində ifa etmək bacarığına malik sənətkar idi.

Artıq 1915-ci ildə M.Sənani Tiflis truppasına cəlb edilir. Həmin ildə Hüseyn Ərəblinskinin iştirakı ilə hazırlanmış "Kaveyi-Ahəngər" tamaşasında Möhsünə dəmirçi Kavənin oğlunun rolunu tapşırırlar. O, bu rolu çox böyük ustalıqla ifa edir. Vəziyyətinin ağırlığına, maddi ehtiyac içərisində yaşamasına baxmayaraq, bütün işlərdən əl çəkib aktyorluqla məşğul olmağa başlayır. Bu dövrdə Tiflis teatrı truppasında çox məşhur sənətkarlar fəaliyyət göstərirdi. Onların sırasında Mirzəli Abbasov, Mirzəxan Quliyev, Əşrəf Yüzbaşıyev, Mirseyfəddin Kirmanşahlı, İbrahim İsfahanlı, Tərlan xanım, Əli Əskərov, Həsən Səbri, Paşa Mahmudov, Kaftaradze, Panfiliya Tanailidi, Əli Qurbanov və adlarını çəkmədiyimiz digər sənətkarlar var idi. Möhsün Sənani onların arasında ən gənc aktyor idi. İlk rollarından o, elə bir etimad qazanmışdı ki, gənc olmasına baxmayaraq, az bir zamanda Vəli ("Arşın mal alan"), Hambal ("Məşədi İbad"), Rzaqulu ("Nadir Şah"), Kasio ("Otello") kimi məsul rolları yaratmaq ona tapşırılır. Elə bu rollar da ona bacarıqlı, işinin peşəkarı kimi qısa zamanda şöhrət qazandırır. 1915-ci ildən 1920-ci ilə kimi Tiflis teatr truppasında çalışan aktyor 1921-ci ildən Bakının teatr səhnələrində görünməyə başlayır. O, nəinki teatrda, eləcə də kinoda yaddaqalan, təkrarolunmaz obrazlar qalereyası yaradır. "Aktrisanın təbəssümü", "Altıncı hiss", "Bayquş", "Bəxtiyar", "Bir məhəllədən iki nəfər", Bismillah", "Bizim küçə", "Dağlarda döyüş", "Fətəli xan", "İsmət" ,"Kəndlilər", "Kölgələr sürünür", "Koroğlu", "Qara daşlar", "Qız qalası əfsanəsi", "Qüdsi", "Mollanın sərgüzəşti", "Nağılların Dərbəndi", "O olmasın, bu olsun", "Səbuhi", "Səhər" və bir çox film kinosevərlərin yaddaşına Möhsün Sənanin rol aldığı filmlər kimi həkk olunub.

Ömrünün son vaxtlarında aktyorun səhhətində ciddi problemlər yaranır, gözləri zəif görür. Yüksək qan təzyiqindən əziyyət çəkən, illərlə səhnə həyatı yaşadığı iş yoldaşlarından ayrı düşdüyünə görə fikir edən aktyor xəstəxanada ikən iki dəfə infarkt keçirir. Möhsün Sənani 11 fevral 1981-ci ildə vəfat edir.

Görkəmli aktyor çoxillik səhnə fəaliyyətinə görə "Qırmızı əmək bayrağı", "Xalqlar dostluğu", "Şərəf nişanı" ordenləri , "Əmək veteranı" və "Əmək igidliyinə görə" medalları ilə təltif edilib.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Gənclər Kitabxanasında Xalq şairi Bəxtiyar Vahabzadənin biblioqrafik icmal və elektron resurslar bazası yaradılıb

Bu il Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi, dramaturq, ədəbiyyatşünas, pedaqoq və ictimai xadim, Dövlət mükafatları laureatı, akademik Bəxtiyar Vahabzadənin anadan olmasının 100 ili tamam olur. Azərbaycan Prezidenti İlham Əliyevin Xalq şairi Bəxtiyar Vahabzadənin 100 illik yubileyinin keçirilməsinə dair imzaladığı sərəncamdan irəli gələn tədbirləri həyata keçirmək məqsədilə Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında biblioqrafik icmal və elektron resurslar bazası yaradılıb.

Kitabxanadan bildirilib ki, təqdim olunan vəsaitdə bir sıra rəsmi sənədlərin tam mətni, şairin zəngin həyat və yaradıcılığı, layiq görüldüyü fəxri adlar haqqında məlumat, elm, mədəniyyət, ədəbiyyat, mət-




buat sahəsinin nümayəndələrinin, ictimai-siyasi xadimlərin onun haqqında söylədikləri dəyərli fikirlər yer alır. Biblioqrafik icmalda şairin müəllifi olduğu və onun haqqında qələmə alınan kitablar, dövri mətbuat nümunələri sərgilənir. Kitabxana əməkdaşları tərəfindən hazırlanan materialda şairin müxtəlif illərdə 12 cilddə nəşr edilmiş "Seçilmiş əsərləri", "Axı dünya fırlanır", "Gülüstan poeması", "Ağ atlı oğlan", "Örtmə pəncərəni", "Türk dünyasının Bəxtiyarı", "Parlament fəsilləri və Bəxtiyar Vahabzadə", "Bəxtiyar Vahabzadə poeziyasının dili", "Bəxtiyar Vahabzadə pyeslərinin səhnə taleyi" kimi 50-yə yaxın kitabın biblioqrafik təsviri ilə yanaşı, qısa annotasiyası da verilib.

# Yeni parkda gənc rəssamların sərgisi açılıb

**Son illər dövlət başçısı İlham Əliyevin diqqət və qayğısı sayəsində Bakının yeni istirahət parkları ilə zənginləşdirilməsinə, paytaxtımızın yaşıllıqlar şəhərinə çevrilməsinə çox böyük önəm verilir. Qlobal ekoloji böhran fonunda şəhərlərin qədimliyinin, ətraf mühitinin qorunması ilə yanaşı, müasirləşdirilməsi və problemlərin həlli istiqamətində paytaxtda genişmiqyaslı tədbirlər görülür.**



Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) Mətbuat xidmətindən bildirilib ki, bu qəbildən görülən işlər nəticəsində bir neçə ay əvvəl metronun "Gənclik" stansiyasının yaxınlığında istifadəyə verilən yeni park artıq şəhər sakinlərinin, qonaqların sevimli gəzinti və istirahət məkanına çevrilib. Burada təşkil olunan kütləvi tədbir və konsertlər parkı gənclər üçün daha cəlbedici edir.

BŞİH-in Humanitar şöbəsi, Azərbaycan Rəssamlıq Akademiyası və "Regional İnkişaf" İctimai Birliyinin birgə təşkil etdiyi "Yeni park - gənc rəssamların gözü ilə" adlı tədbir-sərgi məhz gündən-günə gözəlləşən və "parklar şəhəri" adlandırılan Bakının "Gənclik" metrostansiyasının yaxınlığındakı həmin parka həsr olunub.

Rəssamlıq Akademiyasının müəllim və tələbələri, gənc rəssamlar, "Regional İnkişaf" İctimai Birliyinin könüllülərinin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən sərgidə akademiya tələbələrinin yeni parka həsr olunan 40-dan çox əl işi nümayiş etdirilib.

Tədbir iştirakçıları qarşısında çıxış edən Bakı Şəhər İcra Hakimiyyətinin şöbə müdiri Elmin İmanov, Rəssamlıq Akademiyasının rektoru, Xalq rəssamı Natiq Əliyev, "Regional İnkişaf" İctimai Birliyinin şöbə müdiri Aqşin Oruclu, akademiyanın prorektoru, Xalq rəssamı Səlhab Məmmədov, gənc rəssam Sevinc Gəncəliyeva sərginin əhəmiyyəti, onun gənc rəssamlar arasında maraqla qarşılanması, rəsm əsərlərində parkın özəlliklərinin xüsusi olaraq vurğulanması barədə danışıb, bu kimi sərgilərin digər parkların ərazilərində təşkil edilməsinin maraqla qarşılanacağını bildiriblər.

Rəsm əsərləri Azərbaycan Rəssamlıq Akademiyasının münsiflər heyəti tərəfindən qiymətləndirilib və ilk üç yerin qalibləri müəyyənləşdirilib - Fatimə Əliyeva birinci yerə, Leylahon Nurmetova ikinci yerə, Sevinc Gəncəliyeva, Nigar Qasımova, Aydan Qurbanova və Narın Zeynalabduyeva isə üçüncü yerə layiq görülüblər.

Sərginin qaliblərinə pul mükafatları və sertifikatlar, digər iştirakçılara isə sertifikatlar təqdim edilib.

Sənət dünyamız

**Teatrda, kinoda böyüklüyündən, kiçikliyindən, xarakterindən asılı olmayaraq ifa etdiyi hər rolla tamaşaçıların dərhal diqqətini cəlb edir və yaddaşlarda qalırdı...**
**Səksən il öncə - 1945-ci il iyunun 15-də Gəncə şəhərində dünyaya gələn Amaliya Pənahova ömrünün ilk çağlarından aktrisalıq sənətinin sehrinə düşmüşdü. O, uşaqlıq illərindən teatra, səhnəyə maraq göstərirdi. İllər sonra həmin günləri xatırlayır, sanki özü-özünə yaradıcılıq hesabatı verirdi: "Mən aktrisa olmaq üçün dünyaya gəldim. İllər keçdikcə buna daha çox əmin oluram. Hərdən özümə sual verirəm: ola bilərdimi başqa sahədə işləyim? İnanın, bunu təsəvvürə gətirmək qeyri-mümkündür. Görünür, hər bir adamın taleyi, eləcə də sənəti hələ dünyaya gəlməzdən əvvəl müəyyən olunur. Gəncədə, bizim qonşuluğumuzda bir bina vardı. Orada Gəncə Teatrının işçiləri, onların ailələri yaşayırdılar. Səhər açılandan axşam düşənə qədər bizim həyətdən uşaqların səs-küyü əskik olmazdı. Mənim doğma, şirin uşaqlıq xatirələrim bu səsli-küylü mühitlə bağlıdır. Bəlkə sənət seçimim də elə o mühitdən gəlirdi".**

# Aktrisalığı tale yazısı hesab edirdi



Onun on yaşı olanda atasının işi ilə əlaqədar Bakıya köçdülər. Gəncədə orta məktəbin dördüncü sinfində oxuyan Amaliya Pənahova təhsilini Bakıdakı 4 saylı məktəbdə davam etdirdi. Orta məktəbi başa vurduqdan sonra Moskvaya getmək, orada Ümumittifaq Kinematoqrafiya İnstitutunda oxumaq istəyirdi. Atasının qəti etirazı bu arzusunu reallaşdırmasına mane oldu. Ancaq o, aktrisa olmaq istəyindən əl çəkmədi. On yeddi yaşında Mirzəağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) Dram və kino aktyorluğu ixtisası fakültəsinə qəbul edildi. Adil İsgəndərovun tələbəsi oldu. Aktyorluq sənətinin sirlərini bu görkəmli sənətkardan öyrəndi.

İstedadı elə tələbəliyinin ilk illərindən ona sənətdə yol açmağa başladı. Sehrinə uşaqlıq illərindən düşdüyü səhnəyə də tələbə ikən qədəm qoydu. İkinci kursda oxuyanda dördüncü kurs tələbələrinin hazırladığı "Romeo və Cülyetta" tamaşasında Cülyetta rolu ona həvalə olundu. Azərbaycan Dövlət Akademik Dram Teatrına (indiki Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı) baş rejissor təyin olunan Tofiq Kazımov kursa rəhbərlik edirdi. Həmin vaxt İlyas Əfəndiyevin "Sən həmişə mənimləsən" pyesi teatrda tamaşaya hazırlanırdı. Rejissor pyesi Amaliya Pənahovaya verdi. Tapşırdı ki, oxuyub qeydlərini etsin.

On səkkiz yaşında İlyas Əfəndiyevin "Sən həmişə mənimləsən" tamaşasına Nargilə roluna dəvət olundu. Rejissor Tofiq Kazımovun səhnələşdirdiyi bu tamaşa Amaliya Pənahovaya şöhrətin qapısını açdı. Sonralar sənətdəki ilk uğurunu minnətdarlıq duyğusu ilə yada salırdı: "Əgər mən teatra "Sən həmişə mənimləsən" tamaşasındakı Nargilə ilə gəlməsəydim, bəlkə də mənim tamam başqa taleyim olardı", - deyirdi.

Nargilədən sonra uğurlar onun sənət yolunu izlədi. Amaliya Pənahova 1964-cü ildən başlayaraq teatrda yüzlərlə obraza səhnə həyatı verdi. Tamaşaçılar onu  Tomris, Burla Xatun, Məhsəti, Natəvan, Medeya, Larisa, Ofeliya, Linza və başqa rollarda gördülər, sevdilər.

Amaliya Pənahovanın yaradıcılığında görkəmli dramaturq, Xalq yazıçısı İlyas Əfəndiyevin əsərlərinin xüsusi yeri oldu. O, dramaturqun bir sıra pyeslərindəki maraqlı rolları səhnədə canlandırdı. "Unuda bilmirəm"də Nərmin, "Sən həmişə mənimləsən"də Nargilə, "Mahnı dağlarda qaldı"da Şahnaz, "Mənim günahım"da Nurcahan və başqa rollar onun ifasında təqdim olunaraq tamaşaçı rəğbəti qazandı.

Teatr kimi, kino sahəsində fəaliyyəti də diqqətçəkən oldu. Amaliya Pənahova 30-dan çox filmdə bənzərsiz rollar ifa etdi. Kinoda çəkilməyə də tələbəlik illərində başladı. Müəllimi Adil İsgəndərov 1963-cü ildə ekranlaşdırdığı "Əhməd haradadır?" filmində ona Məsmə rolunu verdi. Bu epizodik roldan sonra - 1964-cü ildə rejissor, yazıçı və kinodramaturq Həsən Seyidbəyli "Cazibə qüvvəsi" filmində bu istedadlı tələbə qıza idmançı obrazını həvalə etdi. Sonralar bir-birindən maraqlı filmlərdə - "Sən niyə susursan?"da uşaqlı ana, "Həyat bizi sınayır"da Münəvvər, "Xatirələr sahili"ndə Xalidə, "Səmt küləyi"ndə Xədicə, "Mezozoy əhvalatı"nda Nərminə, "Ən vacib müsahibə"də zoopark müdiri, "Qərib cinlər diyarında"da Zərri, "Arxadan vurulan zərbə"də Ziba, "Babək"də Zərnisə və başqa filmlərdə iştirak etdi.

Gənc yaşlarında - 1968-ci və 1972-ci illərdə Azərbaycan Lenin komsomolu və Azərbaycan SSR Dövlət mükafatı laureatı fəxri adlarına layiq görüldü. Amaliya Pənahovaya teatr və kino sənətinin inkişafındakı xidmətlərinə görə, 1974-cü ildə Əməkdar artist, 1985-ci ildə isə Xalq artisti fəxri adları verildi.

İstedadlı aktrisa bacarıqlı rejissor olduğunu da 12 televiziya və teatr tamaşasına quruluş verməklə təsdiq etdi. Onların çoxu - "Mənim günahım", "Təkan", "Sənsiz", "Tomris", "Dəli Domrul" və digər tamaşalar lentə alındı, hazırda televiziyanın "Qızıl fondu"nda saxlanılır.

Amaliya Pənahovanın Azərbaycan teatr sənətinə göstərdiyi xidmətlərdən biri də 1992-ci ildə Bakı Bələdiyyə Teatrını yaratması oldu. Həmin teatra orta və yaşlı nəsillə yanaşı, gənc istedadlı aktyorları da cəlb etdi.

O, yalnız teatrda gənc aktyorlara səhnə sənətinin incəliklərini öyrətmədi. Amaliya Pənahova həm də pedaqoji fəaliyyətlə məşğul oldu. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə dərs demək üçün dəvət olunan sənətkar bu təhsil ocağında uzun illər çalışdı. Universitetin professoru oldu. 2013-cü ildə o, "Obrazın yaranma prosesində aktyor yaradıcılığında ikinci planın təcəssüm vasitələri" mövzusunda doktorluq işini müdafiə edərək sənətşünaslıq elmləri doktoru elmi adını aldı.

2000-2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı, MDB Parlamentlərarası mədəniyyət, informasiya, turizm, idman daimi Komissiyasının sədri, İtaliya-Azərbaycan Parlamentləri işçi qrupunun sədri oldu.

Amaliya Pənahova 2003-cü ildən Prezident təqaüdçüsü idi. O, 1995-ci ildə "Şöhrət" ordeni, 2013-cü ildə isə "Şərəf" ordeni ilə təltif edildi. 2015-ci ildə Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif olundu.

Unudulmaz aktrisa 2018-ci il noyabrın 8-də 73 yaşında xərçəng xəstəliyindən dünyasını dəyişdi.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Bakıda dünyaşöhrətli musiqişünasın mühazirəsi dinlənilib



Azərbaycan Milli Konservatoriyasında "Muğam aləmi" 7-ci Beynəlxalq Musiqi Festivalı çərçivəsində dünyaşöhrətli arxeomusiqişünas və bəstəkar Riçard Dumbrill mühazirə oxuyub.

Mədəniyyət Nazirliyindən bildirilib ki, Riçard Dumbrill mühazirədə Yaxın və Orta Şərqin arxeomusiqiologiyasını, xüsusilə şumer, babil və hurri dillərində yazılmış musiqi nəzəriyyəsinin mixi mətnləri ilə bağlı öz şərhini verib. O, Yaxın və Orta Şərq musiqi mədəniyyətinə aid biliklərinə əsaslanan görüşlərini iştirakçılarla bölüşüb. Həmçinin qədim Şərqin musiqi mədəniyyətinə həsr etdiyi kitablarından sitatlar gətirib. Mütəxəssisin müxtəlif musiqi nəzəriyyələrinə həsr olunan mühazirəsi dinləyicilər tərəfindən böyük maraqla qarşılanıb.

İyunun 22-dək davam edəcək festival Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə gerçəkləşir.

# BMU dünyanın 1000 ən yaxşı universiteti sırasına daxil olub

Dünya universitetlərinin yeni reytinq siyahısı (QS World University Rankings 2026) açıqlanıb. Bakı Mühəndislik Universiteti (BMU) reytinq siyahısında ciddi irəliləyişə nail olub. Siyahıda dünya üzrə ilk TOP 1000-ə daxil olan BMU ötən illə müqayisədə 550 pillə irəliləyərək 901-950 aralığında qərarlaşıb.




Universitetdən AZƏRTAC-a bildirilib ki, BMU-nun əldə etdiyi bu mühüm nəticə universitetin tarixində bir ilkdir. Son illər BMU-da elmi potensialın gücləndirilməsi, infrastrukturun yenidən qurulması, təhsil və idarəetmənin müasir standartlara cavab verməsi, həmçinin beynəlxalq əlaqələrin gücləndirilməsi və keyfiyyət göstəricilərinin qlobal miqyasda tanınması istiqamətində mühüm addımlar atılıb. Bununla yanaşı, məzunların işlə təminatında ciddi irəliləyişlərə nail olmaq üçün sənaye və özəl sektorla əməkdaşlıq daha geniş müstəvidə davam etdirilib. Eyni zamanda elmmetrik bazalara əlçatanlığın təmin edilməsi, elmi nəticələrin kəmiyyət və keyfiyyət göstəricilərinin yaxşılaşdırılması, nüfuzlu elmi jurnallarda məqalə sayının artırılması istiqamətində önəmli işlər gerçəkləşdirilib. BMU-da son bir ildə əcnəbi tələbə sayında da müsbət dinamika müşahidə olunub. Əcnəbi tələbə sayı 4 dəfə artıb və xarici tələbələrin təmsil olunduğu ölkələrin sayı 28-ə çatıb.

Bütün bunlar, habelə innovativ siyasət və sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi yönündə məqsədyönlü fəaliyyət, universitetin gələcək inkişaf üzrə strateji proqramında bu sahələrə, xüsusən elmi göstəricilərin yaxşılaşdırılmasına diqqətin daha da artırılması BMU-nun əldə etdiyi nailiyyətdə mühüm rol oynayıb.

Qeyd edək ki, ümumilikdə 6 universitetimiz "QS 2026 dünyanın ən yaxşı universitetlərinin reytinqi"ndə TOP 1000-ə daxil olub. "Akademik nüfuz", "İşəgötürənlər arasında nüfuz", "Müəllim-tələbə nisbəti", "Əcnəbi müəllim payı", "Əcnəbi tələbə payı" və "Məşğulluq nəticələri" indikatorları üzrə Azərbaycan universitetlərinin göstəricilərində müsbət dinamika müşahidə olunub. Reytinqin nəticələrinə əsasən, Azərbaycan Cənubi Qafqaz regionunda lider mövqedədir və ölkəmizdən reytinqə daxil olan universitetlərin sayı Cənubi Qafqazın digər dövlətlərindən reytinqə düşən universitetlərin toplam sayından 3 dəfə çoxdur.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
AZƏRBAYCANIN FƏRQLİ, DÜŞÜNÜLMÜŞ SİYASƏTİ
Azərbaycan-Bolqarıstan əlaqələri strateji xarakter daşıyır
Prezident İlham Əliyev Bolqarıstan Milli Assambleyasının Sədrini qəbul edib
Kahramanmaraşda qardaşlıq abidəsi: Azərbaycan-Türkiyə həmrəyliyinin daha bir rəmzi
Komissiya diqqətlə izləyir, müvafiq cavab tədbirləri görür

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Tramp ABŞ-nin İrana zərbə endirmək planını təsdiqləsə də...

## Xamenei: "Amerikanın münaqişəyə sürüklənməsi ona zərər verəcək"



İsrail-İran qarşıdurması davam edir. İyunun 19-da İran İsrailə yeni raket zərbələri endirib. Ballistik raketlərdən biri ölkənin cənubundakı Beer- Şeva şəhərində yerləşən "Soroka" xəstəxanasına düşüb.

"The Times of Israel" xəbər verir ki, sosial şəbəkələrdə hadisə şahidlərinin raket zərbəsi nəticəsində xəstəxana binasının zədələndiyini göstərən çoxsaylı foto və videoları yayılıb. "JPost"un xəbərində deyilir ki, "Soroka" tibb mərkəzinin nümayəndəsi xəstəxanaya ciddi ziyan dəydiyini və yaralıların olduğu barədə məlumat verib.

İranın "Mehr" xəbər agentliyi isə bildirib ki, hücumun əsas hədəfləri İsrail ordusunun kəşfiyyat və komandanlığının qərargahı və xəstəxananın yaxınlığında yerləşən Gav-Yam texnoparkındakı kəşfiyyat düşərgəsi olub. İran tərəfinin məlumatına görə, tibb müəssisəsi yalnız partlayış dalğasına məruz qalıb və ciddi ziyan görməyib.

Həmçinin İranın raketlərinin Təl-Əviv, Ramat Qan və Holonu vurduğu barədə xəbər yayılıb. Holonda raket yaşayış binasına düşüb və bina qismən dağılıb. İranın raket zərbələri nəticəsində 65-ə yaxın insan yaralanıb. "Ynet" portalı yazır ki, İsrailin Baş naziri Benyamin Netanyahu bu hücuma görə qisas alacağını vəd edib.

İsrail ordusu dünən gecə saatlarında İrana yeni zərbələr endirib. Ordunun mətbuat xidməti bildirib ki, hədəflər Tehranda nüvə silahının inkişafı və raket istehsalı ilə bağlı obyektlər olub. Bundan əvvəl İsrail İranın Ərak və Xondab şəhərlərinin sakinlərini təxliyəyə çağırıb. İran televiziyası isə Ərakdakı ağır su nüvə reaktorunun vurulduğunu bildirib. Ərazinin əvvəlcədən boşaldıldığı və "radiasiya təhlükəsi olmadığı" iddia edilir. Əlavə edək ki, Ərakdakı ağır su reaktorunun yalnız bir hissəsi tikilibmiş və İran onu 2026-cı ildə istifadəyə verməyi planlaşdırıbmış.

Bu arada "The Wall Street Journal" və "Bloomberg" mənbələrə istinadən bildiriblər ki, Donald Tramp İrana zərbə endirmək planını təsdiqləyib, lakin yekun əmri hələ verməyib. Qəzetin mənbələrinə görə, Amerika lideri öz köməkçilərinə hücum planlarını təsdiqlədiyini, lakin Tehranın nüvə proqramından imtina edib-etməyəcəyini bilmək üçün hələlik onun icrasını dayandırdığını bildirib. Amerikanın hücumu üçün mümkün hədəf kimi Fordo Uran Zənginləşdirmə zavodu qeyd olunur.

"Bloomberg" xəbər verir ki, ABŞ-nin yüksəkvəzifəli rəsmiləri yaxın günlərdə İrana zərbə endirmək ehtimalına hazırlaşırlar. Bəziləri bunun həftəsonu baş verə biləcəyini söyləsələr də, vəziyyətin hələ də dəyişə biləcəyini qeyd edirlər. "Bloomberg" mənbələrindən biri deyir ki, bir neçə federal agentliyin rəhbərləri də İrana zərbə endirməyə hazırlaşırlar.

Axios veb-saytının xəbərinə görə, Tramp bunker əleyhinə bombaların Fordo zavodunu məhv edə biləcəyi ilə maraqlanıb və bu barədə hərbi müşavirlərindən soruşub. Onlar buna əmin olduqlarını söyləyiblər. Lakin Tramp hələ tərəddüd edir. Prezident əmin olmaq istəyir ki, hücum həqiqətən zəruridir, o, ölkəni uzunmüddətli müharibəyə sürükləməyəcək və ABŞ İranın nüvə proqramını məhv etmək məqsədinə nail olacaq.

İran və İsrail arasında yeni qarşıdurma başlayandan bəri ABŞ ona qarışmayıb və Tramp Tehranla danışıqları davam etdirməyə ümid edib. Bu müddət ərzində Ağ Ev İrandan uranın zənginləşdirilməsindən və nüvə proqramından imtina etməyi tələb edib. İyunun 18-də jurnalistlərin İranın nüvə obyektlərinə ABŞ-nin zərbələr endirməyi planlaşdırıb-planlaşdırmadığını soruşduqda Tramp deyib: "Mən bunu edə də bilərəm, etməyə də. Heç kim nə edəcəyimi bilmir". O, daha sonra əlavə edib ki, Vaşinqton müharibəyə qarışmaq istəmir, lakin İran bir neçə həftə ərzində nüvə silahı hazırlaya bilərdi.

İranın ali dini lideri Ayətullah Əli Xamenei Vaşinqtona xəbərdarlıq edib ki, onun İsrail tərəfində münaqişəyə cəlb olunması ABŞ-yə ciddi ziyan vuracaq. Eyni zamanda Xamenei ABŞ-nin təslim olmaq çağırışlarını qəti şəkildə rədd edərək Vaşinqtona xəbərdarlıq edib: "Əgər Amerika bu münaqişəyə qarışsa, ona 100 faiz ziyan vurulacaq. Ona dəyəcək zərər İranın potensial olaraq çəkə biləcəyi zərərdən qat-qat çox olacaq. Əgər ABŞ hərbi əməliyyata qarışsa, Amerikaya dəyən zərər şübhəsiz ki, bərpaolunmaz olacaq".

ABŞ Milli Kəşfiyyat Xidmətində hələ də İranın nüvə silahı yaratmaq üzərində işlədiyinə dair heç bir dəlil yoxdur. Bunu Amerika Senatının Kəşfiyyat üzrə xüsusi komitəsinin sədr müavini Mark Uorner deyib. Demokratlar Partiyasının nümayəndəsi bu günlərdə komitənin senatorlara təqdim etdiyi Milli Kəşfiyyat Xidmətinin məlumatlarına istinad edib.

Beynəlxalq Atom Enerjisi Agentliyi (MAQATE) də öz məlumatlarına əsaslanaraq hesab edir ki, İran nüvə silahı istehsalına cəhd etməyib. Bununla bağlı agentliyin baş direktoru Rafael Qrossi Sky News telekanalına deyib. "Bizim qənaətimizə əsasən, hazırda İranda nüvə silahı istehsalı üçün sistemli cəhdlərin olduğunu deyə bilmərik". Onun sözlərinə görə, MAQATE-nin İsrail tərəfindən geniş istinad edilən hesabatında bildirilir ki, İran uranı 60 faiz zənginləşdirir və bu, dünyada bunu edən yeganə ölkədir. Ona görə də "narahatlıq üçün əsaslar var idi". "Lakin biz onların nüvə silahı yaratdıqlarını və istehsal etdiklərini deməmişik", - deyə Qrossi vurğulayıb.

Eyni zamanda MAQATE İsrailin nüvə obyektlərinə davam etdirdiyi hücümların təsirindən narahatdır və qeyd edir ki, nüvə obyektlərinə zərbə endirərkən "nüvə materialının hissəciklərinin atmosferə yayılması" kimi radioloji fəsadların hər zaman başvermə ehtimalı var.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# İrəvan Moskvaya meydan oxuyur

## Baş nazir Nikol Paşinyan Rusiyanın ən varlı ermənisini həbs etdirib

Ermənistanda iqtidar və müxalifətin bir-birinə qarşı kompromat xarakterli hücumlarının artması, gözdənsalma kampaniyasını genişləndirməsi vəziyyəti daha kritik həddə çatdırıb. İndi həm hakimiyyət, həm də revanşistlər 2026-cı ilin parlament seçkilərinə hazırlaşırlar. Bu isə qarşıdakı dövrdə Ermənistanda xaosun qaçılmaz olduğunu deməyə əsas verir.



Proseslər göstərir ki, keçmiş hərbi xunta vəziyyətdən yararlanıb kilsəni də siyasi proseslərə cəlb edərək ölkədəki xaosu daha da dərinləşdirməyə çalışır.

Bu günlərdə İrəvanda rusiyalı erməniəsilli tanınmış iş adamı Samvel Karapetyan hüquq-mühafizə orqanları tərəfindən saxlanılıb. Karapetyan son günlər Ermənistan hakimiyyətinin Apostol Kilsəsinə qarşı apardığı kampaniyanı kəskin tənqid edib və açıq şəkildə Erməni Apostol Kilsəsinə dəstəyini ifadə edib. Müxalifətə yaxın dairələr onun məhz bu bəyanatları fonunda hədəfə alındığını bildiriblər.

Xəbər verildiyi kimi, bir neçə gün əvvəl hökumətlə kilsə arasında gərginlik artmışdı. Paşinyan kilsənin siyasi təsirini qırmaq üçün kampaniyaya başlamış, bu isə ictimaiyyətdə və elita daxilində narazılığa səbəb olmuşdu. Məhz bu fonda baş verən son hadisələr Paşinyanın sistem daxilindəki "təmizləmə" əməliyyatını sürətləndirdiyini göstərir.

Samvel Karapetyan Rusiyada "Tashir Group" adlı iri biznes imperiyasının rəhbəri kimi tanınır. O, uzun illərdir Ermənistanın iqtisadi və ictimai layihələrinə maliyyə dəstəyi göstərib. Hadisə Ermənistan cəmiyyətində və diasporunda ciddi rezonansa səbəb olub.

S.Karapetyan Ermənistanın energetika sektorunda - xüsusilə elektrik şəbəkələrində mühüm paya sahibdir və Kremlə yaxınlığı ilə tanınır. Onun evində xüsusi əməliyyat keçirilib və iki güc strukturu - Milli Təhlükəsizlik Xidməti (MTX) və Daxili İşlər Nazirliyi (DİN) bu prosesdə iştirak ediblər. Mənbələrin bildirdiyinə görə, MTX rəhbəri Armen Abazyan Paşinyanın Karapetyanın həbsi ilə bağlı əmrini yerinə yetirməkdən imtina edib və bu səbəbdən səhər saatlarında işdən çıxarılıb. Bu isə Abazyanın sistem içində müstəqil və ya balanslaşdırıcı fiqur olduğunu və Paşinyanın planlarına müqavimət göstərdiyini təsdiqləyir.

Abazyanın yerinə gətirilən şəxs - Andranik Simonyan təhlükəsizlik sistemində olmayan bir şəxsdir. Bu fakt Ermənistanda ciddi müzakirə mövzusudur. Ekspertlər bildirirlər ki, Simonyanın MTX rəhbəri təyin olunması Paşinyanın artıq hüquq-mühafizə orqanlarını tamamilə öz adamları ilə doldurduğunu göstərir. Bu şəxslər nəinki sistemdən kənardadır, həm də birbaşa Paşinyanın siyasi iradəsinə tabe olmağa hazır adamlardır.

Ermənistanın baş naziri Nikol Paşinyan "Feysbuk" səhifəsində sual ünvanlayıb ki, kilsəyə, yoxsa onun müqəddəsliklərini ləkələyənlərə qarşı çıxmışam?: "Erməni Apostol Kilsəsi Ermənistan Ədliyyə Nazirliyində qeydiyyatdan keçmiş nizamnaməsində təsdiq edir ki, onun nizamnaməsi kilsə rəsmiləri və dindarlar üçün hüquqi qüvvəyə malikdir. İndi bu suallara cavab verərkən mən kilsəyə qarşı mübarizə aparıram, yoxsa Erməni Apostol Kilsəsinin dəyərləri uğrunda mübarizə aparıram? Mən kilsəyə, yoxsa onun müqəddəsliklərini ləkələyənlərə qarşı çıxmışam? Təbii ki, mən kilsəmizin müqəddəsliyini ləkələyənlərə qarşı çıxmışam, sadiq üzvü olduğum Erməni Apostol Kilsəsi və onun sadiq davamçıları naminə mübarizə aparıram".

"California Courier" qəzetinin redaktoru Harut Sasunyan isə bildirib ki, 2026-cı ilin iyununda keçiriləcək parlament seçkiləri ərəfəsində reytinqlərinin kəskin aşağı düşməsi fonunda baş nazir Nikol Paşinyan bütün ermənilərin katolikosunu hədəfə alır. Onun sözlərinə görə, Paşinyan istər Ermənistanda, istərsə də diasporda ermənilərin əksəriyyətinin Erməni Apostol Kilsəsinə sadiq qalmasına məhəl qoymayaraq, ictimai dəstək qazana biləcəyini yanlışlıqla düşünür: "Ötən həftə Paşinyan katolikos II Qaregini daha itaətkar ruhani ilə əvəzləmək niyyətində olduğunu bəyan edərək, ruhanilərin subaylığını bəhanə edib". Sasunyan bildirib ki, Paşinyanın kilsəyə hücumları Ermənistanda vətəndaş müharibəsinə səbəb ola bilər.

Göründüyü kimi, Ermənistan sonu görünməyən daxili siyasi böhrana qədəm qoymaqdadır.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# *Qurban QURBANOV:* "Hər kəsi Bakıda keçiriləcək UFC turnirində döyüşçülərimizi dəstəkləməyə çağırıram"

"Bakıda keçiriləcək UFC turnirində olacağam və hər kəsi döyüşçülərimizi dəstəkləməyə çağırıram".

AZƏRTAC xəbər verir ki, bu sözləri "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov qarşıdan gələn UFC turniri ilə bağlı danışarkən deyib.

Təcrübəli mütəxəssis Bakıda keçiriləcək döyüş gecəsi ilə bağlı fikirlərini bölüşüb və azarkeşləri azərbaycanlı idmançıları dəstəkləməyə səsləyib.

Q.Qurbanov döyüş həvəskarlarını iyunun 21-də təşkil olunacaq turnirə dəvət edib: "Hər kəsi azərbaycanlı döyüşçülərimizi dəstəkləməyə dəvət edirəm. Özüm də Bakıda keçiriləcək UFC turnirində olacağam. Bu vacib anda döyüşçülərimizin yanında olmalı, onlara dəstək göstərməliyik. Bakı Kristal Zalında Azərbaycan azarkeşlərini görmək bizə xoş olardı. Avrokubok oyunlarında "Qarabağ"ın matçları zamanı stadionu 30-35 min azarkeş doldurur. Hər kəsi Bakıda keçiriləcək UFC turnirinə dəvət edirik".





BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3822
Sifariş 1243

Qiyməti 60 qəpik